Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

21 FEVRAL 2020-ci il

№ 32 (4163)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# SEÇKİSONRASI REGİONAL MƏMUR HƏBSLƏRİ BAŞLADI - BƏRDƏ KOLLECİNİN RƏHBƏRİ VƏ NEFTÇALANIN BAŞÇISI QANDALLANDI, RÜŞVƏT VƏ SEÇKİ SAXTAKARLIĞI FAKTORU...

səh. 4

Münhen debatından sonra Ermənistan beynəlxalq təzyiqlərin labüd şəkildə artacağından möhkəm narahatdır...

səh. 9

Sabiq amerikalı həmsədr Ermənistan liderlərinin çoxillik yalanını ifşa etdi - Qondarma "DQR" heç vaxt danışıqlar tərəfi olmayıb

səh. 8

Paşinyan Xankəndinin tarixi barədə bunları bilmədiyi üçün Əliyev Münhendə onu pis vəziyyətə saldı

səh. 6

ABŞ Dövlət Departamenti Ermənistanın 90-cı illərdə Qarabağ siyasətinə dair maraqlı sənədlər açıqlayıb...

səh. 5

Paşinyan 13 hərbçinin ölümündən sui-istifadə edərək özünə müxalif generalları bir-bir aşırır

səh. 10

Suriyada təhlükəli vəziyyət... İdlibdə Əsəd rejiminə qarşı hərbi əməliyyat başladı, Türkiyə və Rusiya müharibənin bir addımlığında...

səh. 5

Azərbaycanda qızıla tələbat böyük sürətlə artır

səh. 11



səh. 2

## Prezident Əliyevin İtaliyaya rəsmi səfərinin iki böyük yekunu - İtaliya-Azərbaycan əməkdaşlığında yeni istiqamətlər açan sənədlər imzalandı, ərazi bütövlüyümüz bir daha bəyan edildi



Ciddi danışıqlara oturanadək Ermənistana borc və qrantların verilməsinə beynəlxalq qadağa - təcavüzkarla bağlı yeni ideya...

səh. 7



Paşinyanın məğlub edildiyi Münhen debatından çıxan böyük sual - Qarabağ probleminin dinc həll perspektivi nə qədər qalıb?

səh. 8

Paşinyanın 2005-ci il yazısı - «Mən əcdadlarıma nifrət edirəm»...

səh. 7

səh. 3

Yeni parlamentin tərkibinə uyğun MSK-da da dəyişikliklər olacaq



səh. 3

ATƏT PA-da və AŞPA-da Azərbaycan deputat korpusunun fəaliyyəti niyə ciddi səmərə verə bilmir...



səh. 14

Bakıda parkinq probleminin layihələndirilməsinə beynəlxalq şirkətləri cəlb etmək nə qədər düzgündür?



səh. 12

"Məqalə mafiyası"nın qurbanı olan gənc alim və dissertantlar...



səh. 13

Dövlət xəstəxanalarında uşaq peyvəndlərinə qarşı qaralayıcı kampaniya, ya reallıq...



# Prezident Əliyevin İtaliyaya rəsmi səfərinin iki böyük yekunu - İtaliya-Azərbaycan əməkdaşlığında yeni istiqamətlər açan sənədlər imzalandı, ərazi bütövlüyümüz bir daha bəyan edildi

**İtaliya Respublikasında dövlət səfərində olan Prezident İlham Əliyevin fevralın 20-də Romada rəsmi qarşılanma mərasimi keçirilib. Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı İtaliya Prezidenti Sercio Mattarella və qızı Laura Mattarella qarşılayıb.**



Sonra Azərbaycan nümayəndə heyəti İtaliya Prezidentinə, İtaliya nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olunub.

Qarşılanma mərasiminin ardından prezidentlərin təkbətək görüşü olub.

Təkbətək görüş başa çatdıqdan sonra prezidentlər İlham Əliyev və Sercio Mattarellanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Geniş tərkibdə görüşdən sonra Azərbaycan Prezidenti İlham Əliyev və İtaliya Prezidenti Sercio Mattarella mətbuata bəyanatlarla çıxış ediblər.

Fevralın 20-də Prezident İlham Əliyevin İtaliya Respublikası Nazirlər Şurasının sədri Cüzeppe Konte ilə də təkbətək görüşü olub.

Görüşdə Azərbaycanla İtaliya arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğu qeyd edilərək, ölkələrimiz arasında möhkəm dostluq münasibətlərinin mövcud olduğu vurğulanıb. "Çoxölçülü strateji tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"nin imzalanmasının əhəmiyyəti qeyd olunub, bu sənədin əlaqələrimizi daha yüksək səviyyəyə qaldıracağı vurğulanıb. Azərbaycanın radikalizmə, terrorizmə və ekstremizmə qarşı mübarizədə aparıcı rolu, ölkəmizin dünyəvi ənənələri yüksək qiymətləndirilib.

Söhbət zamanı ölkələrimizin enerji sahəsində uğurla əməkdaşlıq etdiyi və Cənub Qaz Dəhlizinin son seqmenti olan TAP layihəsinin bu il son mərhələsinə qədəm qoyduğu bildirilib. Həmçinin İtaliya şirkətlərinin Azərbaycanda qeyri-neft sektorunun inkişafında və iqtisadiyyatın şaxələndirilməsində çox fəal surətdə iştirak etdikləri vurğulanıb. Bu səfər zamanı imzalanacaq çoxsaylı sənədlərin ölkələrimiz arasında əməkdaşlığın daha geniş şəkildə inkişafı üçün zəmin yaradacağı qeyd edilib. Eyni zamanda, fevralın 21-də keçiriləcək biznes forumun daha böyük imkanlar yaradacağı diqqətə çatdırılıb.

Söhbət zamanı İtaliyanın Azərbaycanın Avropa İttifaqı və NATO ilə əlaqələrinin inkişafını dəstəklədiyi bildirilib. Həmçinin Əfqanıstanda sülhməramlı əməliyyatlarda ölkələrimizin birlikdə iştirakı qeyd edilib.

Görüşdə Azərbaycanla İtaliya arasında elm-təhsil, tələbə mübadiləsi, turizm sahələrində əməkdaşlıq məsələləri də müzakirə olunub.

Azərbaycanla İtaliya arasında mədəniyyət sahəsində əlaqələrin inkişafında Heydər Əliyev Fondunun rolu xüsusi vurğulanıb. 2020-ci ilin İtaliyada mədəniyyət baxımından Azərbaycan ili elan edildiyi bildirilib.

Dövlət başçısı İtaliya Nazirlər Şurasının sədrini Azərbaycana rəsmi səfərə dəvət edib. Nazirlər Şurasının sədri bu səfəri məmnuniyyətlə qəbul etdiyini bildirib.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

Fevralın 20-də təkbətək görüş başa çatandan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və İtaliya Prezidenti Sercio Mattarellanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşündə Prezident İlham Əliyevi salamlayan İtaliya Prezidenti Sercio Mattarela deyib:"İki il əvvəl Bakıda mənə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirirəm. Hazırkı səfəriniz də Azərbaycan və İtaliya arasında səmimi dostluğun və güclənən əməkdaşlığın bir daha qeyd edilməsi, eləcə də Sizin və hökumətinizin İtaliya-Azərbaycan əlaqələri üçün yürütdüyü siyasətin, habelə ölkələrimiz arasında bütün istiqamətlərdə - enerji, ticari-iqtisadi, siyasi və mədəni sahələrdə əməkdaşlığın dəyərləndirilməsi üçün gözəl fürsətdir".

Prezident İlham Əliyev deyib:

"Təşəkkür edirəm, hörmətli cənab Prezident.

İlk növbədə, İtaliyaya dövlət səfərinə dəvətə və göstərdiyiniz qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirirəm. Yenidən gözəl ölkənizdə olmağımdan çox məmnunam.

Sizin Azərbaycana tarixi səfərinizi məmnuniyyətlə xatırlayıram. Səfər zamanı əldə edilmiş razılaşmalar artıq həyatda öz əksini tapır və bu gün İtaliya-Azərbaycan əlaqələri yeni yüksək səviyyəyə qalxır. Həm siyasi sahədə, iqtisadi sahədə, energetika, mədəniyyət, nəqliyyat, bütün demək olar ki, bütün sahələrdə şirkətlərimiz arasındakı əlaqələr yeni pilləyə qalxır. Səfər zamanı imzalanacaq çoxsaylı sənədlər bizim əlaqələrimizi daha da gücləndirəcək. Onların arasında xüsusilə strateji tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannaməni qeyd etmək istərdim.

Energetika sahəsində çox gözəl nəticələr var. Bizim birgə icra etdiyimiz Cənub Qaz Dəhlizi yekunlaşmaq üzrədir. Bizim bundan sonra əsas istəyimiz ondan ibarətdir ki, qeyri-neft sektorunda İtaliya və Azərbaycan arasındakı əlaqələr daha sürətlə inkişaf etsin. Sabah keçiriləcək biznes forum, əminəm ki, bu istiqamətdə çox önəmli addım olacaq".

Görüşdə "Çoxölçülü strateji tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"nin əhəmiyyəti vurğulanıb. Bildirilib ki, bu sənəd bütün sahələri, o cümlədən siyasi, iqtisadi, ticari, enerji sahələrini əhatə edir.

Söhbət zamanı İtaliyanın hər zaman Azərbaycanın dostu olduğu vurğulanıb. Azərbaycanın qlobal baxımdan çox əhəmiyyətli bir regionda yerləşdiyi və bütün ölkələrlə yaxşı əlaqələr qurduğu qeyd edilib.

Görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyi bir daha vurğulanıb. Bu münaqişənin məhz Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri və Helsinki Yekun Aktına əsasən həll edilməsinin zəruriliyi bildirilib.

**Söhbət zamanı ölkələrimiz arasında mədəniyyət sahəsində əlaqələrin inkişafında Heydər Əliyev Fondunun rolu xüsusi qeyd olunub. 2020-ci ilin İtaliyada mədəniyyət baxımından "Azərbaycan ili" elan edildiyi diqqətə çatdırılıb.**

**Hər dəfə ölkədə yeni seçkilər keçiriləndə bütün diqqətlər Mərkəzi Seçki Komissiyasına tuşlanır. Parlament seçkiləri tam başa çatıb, nəticələr Konstitusiya Məhkəməsi tərəfindən təsdiqlənəndən sonra MSK-nın yeni tərkibinin kimlərdən ibarət olacağı müzakirə mövzusuna çevrilir.**

***Rəfail Becanov:*** *"Dairə seçki komissiyaları da MSK-dakı say tərkibinə uyğun şəkildə olan nisbətdə formalaşır"*

***Mehman Muradlı:*** *"Qanunverici hakimiyyətdə təmsil olunan tərkibə uyğun da MSK formalaşacaq"*

# Yeni parlamentin tərkibinə uyğun MSK-da da dəyişikliklər olacaq

Qanunvericiliyə görə, parlament seçkilərindən sonra Mərkəzi Seçki Komissiyası da yenidən formalaşmalıdır. Seçki Məcəlləsinə əsasən, MSK-nın səlahiyyət müddəti 5 ildir.

Qanunvericiliyə görə, Mərkəzi Seçki Komissiyasının yeni tərkibi yeni seçilmiş Milli Məclis fəaliyyətə başlayandan sonra onlar tərəfindən təsdiqlənməlidir. Qeyd edək ki, qanunvericiliyə uyğun olaraq, MSK-nın 6 üzvü deputatları Milli Məclisdə çoxluq təşkil edən və onların namizədliklərini təqdim edən siyasi partiyanı, digər 6 üzvü heç bir siyasi partiyaya mənsub olmayan (müstəqil) və onların namizədliklərini təqdim edən deputatları, yerdə qalan 6 üzvü isə deputatları Milli Məclisdə azlıq təşkil edən və onların namizədliklərini təqdim edən siyasi partiyaları təmsil edir. Bu baxımdan seçkilərdən sonra seçilməyən partiyalar MSK-dan çıxırlar. Çıxanlar isə yeni gələn partiyalarla əvəz olunur.

MSK-nın yeni tərkibinin formalaşması ilə bağlı ekspertlərin fikri necədir?

Siyasi şərhçi Rəfail Becanov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, MSK-nın tərkibi qanunvericiliyin tələbinə uyğun şəkildə formalaşır: "MSK-nın tərkibində təyinat olmur. Parlamentdə təmsil olunan siyasi qüvvələr və bitərəf namizədlərin sayına uyğun təşkil olunur. MSK-da parlamentdə təmsilçilik qazanmış siyasi partiyaların və bitərəflərin namizədləri də yer alırlar. Hesab edirəm ki, formalaşmada qanunun tələbləri tam nəzərə alınacaq. Əsas məsələ budur ki, MSK öz üzərinə düşən funksiyanı lazımi şəkildə yerinə yetirsin. Seçkilərin keçirilməsini təşkil edə bilsin. MSK-nın işinin diqqət mərkəzində olması təbiidir. Çünki namizəd çoxdur, cavabdeh qurum isə birdir. Bütün namizədlər deputat olmaq istəyir. Bəzən baş verən neqativ hallar, bəzən isə rəqiblərə qalib gələ bilməməklə bağlı vəziyyət bütün ittihamların mərkəzinə MSK-nı gətirmiş olur. Biz bütün seçkilərdə analoji vəziyyəti görürük. Sizi inandırım ki, MSK-nın tərkibində kimlərin olmasında asılı olmayaraq, biz növbəti seçkilərdə də analoji ittihamları eşidəcəyik. Dairə seçki komissiyaları da MSK-dakı say tərkibinə uyğun şəkildə olan nisbətdə formalaşır. Bütün bunlar Seçki Məcəlləsində konkret öz əksini tapıb".



Hüquqşünas Mehman Muradlı da qəzetimizə bildirdi ki, MSK-nın formalaşmasında qanunun tələblərindən kənara çıxılması mümkün deyil: "Parlament seçkilərindən sonra qanunverici hakimiyyətdə təmsil olunan tərkibə uyğun da MSK formalaşacaq. MSK-nın 6 üzvü deputatları Milli Məclisdə çoxluq təşkil edən siyasi partiyanın, digər 6 üzvü heç bir siyasi partiyaya mənsub olmayan bitərəflərin, qalan 6 üzvü isə deputatları azlıq təşkil edən siyasi partiyaların nümayəndəsi olacaq".

***Məhəmmədəli QƏRİBLİ***

**Məlum olduğu kimi, artıq neçə ildir Avropa Şurası Parlament Assambleyası (AŞPA) və ATƏT-in Parlament Assambleyası Azərbaycana qarşı ikili standartlardan çıxış edirlər. Fevralın 9-da ölkədə keçirilən parlament seçkilərinə sözügedən təşkilatlar tənqidi prizmadan yanaşdılar.**

*"O baxımdan onların fəaliyyətini qənaətbəxş hesab etmək olmaz"*

# ATƏT PA-da və AŞPA-da Azərbaycan deputat korpusunun fəaliyyəti niyə ciddi səmərə verə bilmir...

***Arzuxan Əlizadə:*** *"Hər iki beynəlxalq təşkilatda deputat qrupunun fəaliyyəti arzuolunan səviyyədə olmayıb"*

AŞPA və ATƏT PA-nın mövqeyi ondan ibarət oldu ki, guya seçkilər Avropa demokratiya normalarına uyğun olmayıb. O səbəbdən sözügedən seçkiləri əhalinin iradəsinin azad ifadəsi hesab etmək olmaz.

Sözügedən qurumların seçkilərin nəticələrinə tənqidi yanaşacağı gözlənilən idi. Məsələ ondadır ki, parlament seçkiləri keçirilməzdən əvvəl siyasi məhbus məsələsi gündəmə gətirildi və s.

O da məlumdur ki, AŞPA və ATƏT PA-da Azərbaycanı təmsil edən nümayəndə heyətləri fəaliyyət göstərirlər. Belə ki, Azərbaycanın AŞPA-da nümayəndə heyətinə Səməd Seyidov (sədr), Qənirə Paşayeva (bitərəf), Fazil Mustafa (Böyük Quruluş Partiyasının sədri), Sabir Hacıyev (Vətəndaş Birliyi Partiyasının sədri), Sahibə Qafarova (Yeni Azərbaycan Partiyası), Sevinc Fətəliyeva (Yeni Azərbaycan Partiyası), Rafael Hüseynov (bitərəf), Rövşən Rzayev (bitərəf) və Vüsal Hüseynov (Yeni Azərbaycan Partiyası) daxildir.

Azərbaycanı ATƏT PA-da isə Milli Məclisin vitse-spikeri olmuş Bahar Muradova, deputatlar Azay Quliyev, Kamran Nəbizadə, Tahir Mirkişili, Ülviyyə Ağayeva və Elşad Həsənov təmsil ediblər.

Ötən illər ərzində sözügedən deputat korpusu bu təşkilatlarla işləyib. Ancaq görünən odur ki, bütün bunlar həmin qurumların Azərbaycana olan münasibətinin müsbət istiqamətdə dəyişməsinə təsir etməyib. Bəlkə də deputat korpusu bu qurumlarla səmərəli işləsəydi, mənzərə fərqli olardı. Həmin təşkilatlar seçkilərə tənqidi yanaşmazdılar. İstənilən halda, ATƏT PA-da və AŞPA-da Azərbaycanın deputat qrupunun fəaliyyətini səmərəli hesab etmək olarmı?

Məsələyə münasibət bildirən AMİP-in baş katibi Arzuxan Əlizadənin sözlərinə görə, hər iki beynəlxalq təşkilatda Azərbaycanın deputat qrupunun fəaliyyəti arzuolunan səviyyədə olmayıb: "Hesab edirəm ki, bu etiraf edilməlidir. Həmin deputat qrupları gərək bu təşkilatlarla işi səmərəli quraydılar. Daha keyfiyyətli iş ortaya qoyulsaydı və bu qurumlarla sistemli iş aparılsaydı, hazırkı mənzərə başqa cür ola bilərdi. Beynəlxalq təşkilatlarla işin qurulması çox vacib məsələdir. Düzdür, sözügedən qurumların ikili standartlardan çıxış edərək siyasət yeritmələri də faktdır. Hansı ki, Ermənistanın təcavüzünü çox vaxt görməzdən gəlirlər, işğalçı ölkədə baş verən pozuntulara münasibətdə konkret mövqe tutmurlar və s.




**Ancaq bütün bunlara baxmayaraq, hesab edirəm ki, Azərbaycanı təmsil edən deputat qrupu bu təşkilatlarla işi yetərincə qura bilməyib. Hər halda, daha çox işləmək və keyfiyyətli nəticə ortaya qoyulmalı idi. Ancaq bu baş vermədi. O baxımdan onların fəaliyyətini qənaətbəxş hesab etmək olmaz".**

***Vidadi ORDAHALLI***

# Seçkisonrası regional məmur həbsləri başladı - Bərdə Kollecinin rəhbəri və Neftçalanın başçısı qandallandı, rüşvət və seçki saxtakarlığı faktoru...

**Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) əməkdaşları Neftçala Rayon İcra Hakimiyyətinin inzibati binasında xüsusi əməliyyat keçirib. DTX İctimai əlaqələr şöbəsindən verilən məlumata görə, Neftçala Rayon İcra Hakimiyyətinin vəzifəli şəxslərinin səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə edib vətəndaşların hüquqlarına, cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuran çoxsaylı cinayət əməllərinə yol verməleri ilə bağlı başlanılmış cinayət işi üzrə kompleks əməliyyat-istintaq tədbirləri həyata keçirilir.**

Araşdırmalar əsasında şübhəli şəxs qismində tutularaq cinayət məsuliyyətinə cəlb edilən şəxslər və onlar tərəfindən törədilmiş cinayət əməlləri barədə ictimaiyyətə daha geniş məlumat veriləcəyi bildirilir.

Haqqın.az xəbər verib ki, Dövlət Təhlükəsizliyi Xidmətinin içərisində xüsusi təyinatlılar olan dörd cipi Neftçala rayon İcra Hakimiyyətinin binası qarşısında dayanıb.

Xüsusi təyinatlılar maşınlardan düşərək sürətlə binaya daxil olublar. Binanın qarşısında DTX əməkdaşları blok-post qurub, içəri heç kim buraxılmır.

Unikal.org-un etibarlı mənbədən əldə etdiyi məlumata görə, Neftçalanın icra hakimiyyətinin başçısı İsmayıl Vəliyev rüşvət alarkən DTX tərəfindən həbs edilib. Yerli mətbuatdakı xəbərlərin bir qismində iddia olunur ki, icra başçısı Neftçalada seçkilərə müdaxilə edib.

Neftçalanın Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən saxlanılan icra başçısı İsmayıl Vəliyev parlament seçkiləri zamanı seçkilərə müdaxilə etməyib. Bunu isə 61 saylı Neftçala Dairə Seçki Komissiyasının sədri Şaiq Məmmədov oxu.az-a bildirib. Onun sözlərinə görə, icra başçısının seçkilərə müdaxiləsi barədə xəbərlər həqiqəti əks etdirmir.

Qeyd edək ki, 61 saylı Neftaçala Seçki Dairəsi üzrə lider namizəd Sabir Rüstəmxanlı, 60 saylı Salyan-Neftçala dairəsindən isə lider namizəd Fəzail Ağamalıdır.

Anews.az-a etibarlı mənbədən daxil olan məlumatda isə bildirilir ki, İcra başçısı artıq əli qandallı aparılıb.

İlkin ehtimala görə, baş verənlərə səbəb 9 fevralda keçirilən seçkilərdə qalib namizədin icra nümayəndəsinə külli miqdarda pul verərək "yüzbaşı", "minbaşı" yolu ilə seçkiyə seçici gətirtməsi olub. Və mənbənin verdiyi məlumata görə, həmin rayonun seçki nəticələri də ləğv olunacaq.

Neftçalanın icra başçısı İsmayıl Vəliyevin rüşvət alarkən DTX tərəfindən tutulduğu bildirilsə də, onun 9 fevral növbədənkənar parlament seçkilərinə müdaxiləsi mətbutada xüsusi vurğulanır. Hətta bəzi xəbər saytları yazıb ki, icra başçısının həbs olunmasına səbəb həmin rayon üzrə qalib namizəd seçilmiş Sabir Rüstəmxanlının ona rüşvət təklif edərək seçici cəlb etməsi olub.



"Bizimxeber.az" məsələ ilə bağlı Sabir Rüstəmxanlı ilə saxlayıb. Deputat bildirib ki, bu yalan məlumatdır.

"Mən seçki müddətində onunla bir-iki dəfə hüzr yerində görüşmüşük. Xalq onsuz da mənə səs verib, mən nəyə görə rüşvət verməliyəm? Belə bir xəbəri məni istəməyən adamlar verə bilər" - deyə Sabir Rüstəmxanlı qeyd edib.

Fevralın 20-də Prezident İlham Əliyev İsmayıl Vəliyevin Neftçala Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.

Sərəncama əsasən, İsmayıl Məhərrəm oğlu Vəliyev Neftçala Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.

DTX tərəfindən rüşvət, korrupsiya ittihamları ilə saxlandığı bildirilən Neftçala rayon İcra Hakimiyyətinin başçısı İsmayıl Vəliyev kimdir?

İsmayıl Vəliyev Azərbaycan Respublikasının sabiq baş prokuroru İsmət Qayıbovun bacısı oğludur. O, 31 oktyabr 1959-cu ildə Gəncə şəhərində anadan olub. 1981-ci ildə Bakı Dövlət Universitetini bitirib, əmək fəaliyyətinə 1981-ci ildə Əli Bayramlı şəhər Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsində ümumi şöbənin müdiri kimi başlayıb.

Əli Bayramlı şəhər Xalq Deputatları Sovetinin deputatı olub. 1985-1991-ci illərdə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin bağışlama şöbəsində məsləhətçi, hüquq şöbəsində böyük məsləhətçi, baş mütəxəssis, Qanunvericilik və hüquq şöbəsində sektor müdiri vəzifələrində işləyib. 1991-1992-ci illərdə "İlk Bank" səhmdar-kommersiya bankının idarə heyətinin sədri, "Mejbankovskoye Obyedinenie" səhmdar bankında bank şurasının sədri vəzifələrində işləyib.

1992-1994-cü illərdə Azərbaycan Prezidentinin İcra Aparatının qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsində böyük məsləhətçi işləyib. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində 28 mart 1995-ci il tarixdən 24 may 1995-ci il tarixədək Gömrük nəzarətinin təşkili idarəsinin rəis müavini, 24 may 1995-ci il tarixdən 29 may 1996-cı il tarixədək həmin idarədə rəisin birinci müavini, 29 may 1996-cı il tarixdən 21 may 1998-ci il tarixədək Sumqayıt Gömrükxanasının rəisi, 21 may 1998-ci il tarixdən 21 yanvar 1999-cu il tarixədək Gömrük Komitəsi sədrinin müşaviri, 21 yanvar 1999-cu il tarixdən 03 yanvar 2001-ci il tarixədək Dövlət Analitik Şöbənin rəisi, 03 yanvar 2001-ci il tarixdən 31 may 2005-ci il tarixədək Gömrük Nəzarətinin Təşkili İdarəsinin rəis müavini vəzifələrində işləyib. 01 iyun 2005-ci ildən 24 avqust 2005-ci il tarixədək "Petrogeoaz" məhdud məsuliyyəti cəmiyyətinin baş direktoru vəzifəsində işləyib. Azərbaycan Prezidentinin 24 avqust 2005-ci il tarixli 970 nömrəli sərəncamı ilə Qobustan rayonu İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edilib. Azərbaycan Prezidentinin 26 aprel 2011-ci il tarixli 1470 nömrəli sərəncamı ilə Neftçala rayonu İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin olunub. Ailəlidir, 2 övladı var.

Bərdə İdarəetmə və Texnologiya Kollecinin direktorunun qanunsuz hərəkətləri barədə daxil olmuş məlumatlar əsasında Təhsil Nazirliyinin əməkdaşlarının iştirakı ilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri həyata keçirilib.

Bu tədbirlərlə Bərdə İdarəetmə və Texnologiya Kollecinin direktoru Xalıddin Ələkbərovun Kollecin direktor müavini İlqar Dursunovun vasitəsilə tələbələrin qış imtahan sessiyasından müvəffəqiyyətlə keçməsi, dərslərdə iştirak etməyənlərin davamiyyətinin nizama salınması, tələbələrin aylıq pul müqabilində dərslərdən buraxılması, digər təhsil müəssisələrindən köçürülməsi və sair hallarla bağlı kütləvi şəkildə rüşvət almasına əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 311.3.1 və 311.3.2-ci (Rüşvət alma qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən və təkrar törədildikdə) maddələri ilə cinayət işi başlanıb.

Cinayət işi üzrə hərtərəfli, tam və obyektiv istintaq aparılmasını təmin etmək məqsədilə Bərdə İdarəetmə və Texnologiya Kollecinin direktoru Xalıddin Ələkbərovun və direktor müavini İlqar Dursunovun xidməti otaqlarında məhkəmə qərarı ilə axtarış aparılıb, Kollecin tələbələrinə məxsus tələbə biletləri və diplomlar, tələbələrdən alınmış müxtəlif məbləğlərdə pul vəsaitlərinə dair qeydlər və iş üzrə digər əhəmiyyətli sənəd və əşyalar aşkar edilərək götürülüb.

İstintaq zamanı toplanmış ilkin sübutlarla Xalıddin Ələkbərovun və İlqar Dursunovun qeyd edilən qanunsuz hərəkətləri törətməsinə əsaslı şübhələr müəyyən edildiyindən, onlar şübhəli şəxs qismində tutulub.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin və həmin şəxslərin qanuni mənafelərini pozmuş olduqları Kollec tələbələrinin dairəsinin tam müəyyənləşdirilməsi, habelə vurulmuş ziyanın ödənilməsinin təmin olunması istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu və Təhsil Nazirliyi bu qəbildən olan qanunazidd hallarla üzləşən vətəndaşlardan Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin 161 saylı və Təhsil Nazirliyinin 146 saylı "Qaynar xətt" əlaqə mərkəzlərinə məlumat verməlerini xahiş edir.

*Hazırladı:* ***Namiq QULİYEV***

# ABŞ Dövlət Departamenti Ermənistanın 90-cı illərdə Qarabağ siyasətinə dair maraqlı sənədlər açıqlayıb...

**ABŞ Dövlət Departamenti Dağlıq Qarabağla bağlı iki vacib sənədi açıqlayıb. Bu barədə Ermənistanın bəzi saytları məlumat yayıblar. Hər iki sənəd Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyanın münaqişənin həllinə dair mövqeyi ilə bağlıdır.**

1993-cü ilin 29 mayına aid olan ilk sənəddə ABŞ-ın İrəvandakı səfiri Harri Gilmorla Ermənistanın xarici işlər nazirinin səlahiyyətlərini icra edən Jirayr Lipartiyanın dialoqu yer alıb: "Ter-Petrosyan hökuməti Qarabağı itirməkdən narahat deyil. Onlar başqa məsələlərə - demokratiya, insan hüquqları və həyat şəraitinin yüksəldilməsi ilə bağlı öhdəlik götürüblər. Kəlbəcərin qorunması erməni əhalisinin əsas hədəfinə çevriləcəksə, Ter-Petrosyan və hökuməti istefaya gedəcək. Onlar işğal olunmuş ərazilərin geri qaytarılmasının tərəfdarıdırlar".

Digər sənəddə isə 1996-cı ildə ABŞ dövlət katibinin müavini Strob Talbottun ABŞ-ın milli təhlükəsizlik üzrə müşaviri Sandi Berger ilə yazışması qeyd olunub: "Ter-Petrosyan bildirir ki, Dağlıq Qarabağ məsələsində 90% uğur qazana bilərik, qalan 10% üçün isə vasitəçilər lazımdır. Birinci ATƏT-in Minsk Qrupu, ikinci ABŞ, üçüncü isə Rusiya. Daha bir variant var - Azərbaycan Respublikasının dövlət müşaviri Vəfa Quluzadə ilə birbaşa dialoq. Ermənistan Prezidentinin sözlərinə görə, burada söhbət ərazi bütövlüyü və Azərbaycanın işğal olunmuş ərazilərindən çıxmaqdan gedir. Ter-Petrosyan, eyni zamanda, deyir ki, vasitəçilər Dağlıq Qarabağın təhlükəsizliyi ilə bağlı təminat məsələsini həll etməlidirlər. Onun sözlərinə görə, Qarabağ Ermənistanla əlaqədə olmalıdır. Bu həm də hərbi-təhlükəsiz dəhliz olmalıdır".

Əlavə edək ki, Levon Ter-Petrosyan məhz bu mövqeyinə görə 1998-ci ildə "Qarabağ klanı"nın əlilə hakimiyyətdən devrilib. Devrilmək ərəfəsində verdiyi müsahibələrin birində isə o demişdi ki, "əgər bu gün Ermənistana təklif edilən planı götürməsək, zaman gələcək yalvaracağıq. Çünki Azərbaycan güclənəcək".

Təcrübəli siyasətçi olan Levon Ter-Petrosyanın vaxtında güzəştə getmək siyasətinə Ermənistan qayıda bilərmi və həmin təkliflərdən imtina Ermənistana nə verdi?

Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ter-Petrosyan vaxtında situasiyanı çox doğru qiymətləndirib: "Mən onun öz sözləri ilə demək istəyirəm. Devriləndən dərhal sonra o demişdi ki, Azərbaycanın bizə təklif etdiyi sülh şərtlərini bir müddət sonra dizi üstə yalvarıb onlardan istəyəcəyik. Dağlıq Qarabağın işğalının

## *Qabil Hüseynli: "Zaman göstərdi ki, Ter-Petrosyan çox ağıllı və uzaqgörən siyasətçi olub"*




böyük hissəsi onun rəhbərliyi altında həyata keçirilsə də, sonradan anladı ki, bölgədə sülh yaratmadan konfliktin həllində irəli getmək mümkün deyil. O bilirdi ki, konflikt həll edilmədən Ermənistanı inkişaf etdirmək qeyri-mümkündür. Levon Ter-Petrosyan açıq formada Dağlıq Qarabağın Azərbaycanın tərkibində qalmasına razılıq verməsə də, 7 rayonun qeyd-şərtsiz azad edilməsinin tərəfdarı idi. Hətta Mehri dəhlizinin açılmasına da razı idi. Bir az dərinə gedəndə Dağlıq Qarabağın xüsusi statusunun müzakirə mövzusu ola biləcəyini söyləyirdi. O zaman ABŞ proseslərə qarışandan sonra sülhyaratma prosesində ciddi uğurlar əldə edilmişdi. O bilirdi ki, Azərbaycan bölgədə böyük layihələri gerçəkləşdirəcək. Bundan Ermənistana da pay düşməsini istəyirdi. Zaman göstərdi ki, Ter-Petrosyan çox ağıllı və uzaqgörən siyasətçi olub. Onun planları ilə getməmək Ermənistanı rəzil duruma saldı. O həm də yaxşı bilirdi ki, azərbaycanlılar "torpaqdan pay olmaz" prinsipinə çox sadiqdirlər. Vaxtında torpağın sahibləri ilə dil tapıb, bölgədəki müharibə şəraitini aradan qaldırmaq istəyirdi. İndiki Ermənistan rəhbərləri isə küçədən hakimiyyətə gəliblər. Paşinyan bu fikirlərdən tam uzaqdır. Onun Ter-Petrosyanın təkliflərinə dəstək verməsi inandırıcı görünmür".

***Məhəmmədəli QƏRİBLİ***

# MSK daha 16 seçki məntəqəsində səsvermənin nəticələrini ləğv etdi




**Mərkəzi Seçki Komissiyasının (MSK) sentyabrın 20-də keçirilən iclasında 125 saylı Zəngilan-Qubadlı seçki dairəsi ilə bağlı müraciətə baxılıb.**

"Trend"in məlumatına görə, müraciətdə həmin dairə üzrə bir sıra seçki məntəqələrində seçki prosesinin pozulduğu qeyd edilib. MSK üzvü Tofiq Həsənov qeyd edib ki, araşdırmalar zamanı bir sıra seçki məntəqələrində səsvermənin pozulması halları öz təsdiqini tapıb. O bildirib ki, 1, 10, 13, 32, 36, 37, 38, 39, 40, 55, 59-cu məntəqələrdə səsvermənin nəticələrinin ləğv edilməsi üçün hüquqi əsaslar yaranıb və həmin məntəqələr üzrə səsvermənin nəticələrinin əsassız sayılmasını təklif edib. Təklif səsə qoyularaq qəbul edilib. İclasda 57 saylı Kürdəmir seçki dairəsi ilə də bağlı müraciətə baxılıb. Bildirilib ki, müraciətdə həmin dairə üzrə bir sıra seçki məntəqələrində seçki prosesinin pozulduğu qeyd edilib.

MSK üzvü İlkin Şahbazov deyib ki, araşdırmalar zamanı beş seçki məntəqəsində səsvermənin pozulması halları öz təsdiqini tapıb. O bildirib ki, 7, 18, 20, 27, 33 saylı seçki məntəqəsində səsvermənin nəticələrinin ləğv edilməsi üçün hüquqi əsaslar yaranıb və həmin məntəqələr üzrə səsvermənin nəticələrinin əsassız sayılmasını təklif edib. Təklif səsə qoyularaq qəbul olunub.

# Suriyada təhlükəli vəziyyət... İdlibdə Əsəd rejiminə qarşı hərbi əməliyyat başladı, Türkiyə və Rusiya müharibənin bir addımlığında...

**Türkiyənin Suriyada dəstəklədiyi müxaliflər son günlər İdlibin cənubunda irəliləyən Bəşər Əsəd rejiminə qarşı hərbi əməliyyata başlayıb.**



Baki-xeber.com xəbər verir ki, müxaliflər Serakib rayonunun şimal-qərbində strateji əhəmiyyətli Neyrab kəndini nəzarətə götürüblər. Kənddəki rejim hədəflərinə qarşı artilleriya atəşlərindən sonra qurudan irəliləməyə başlayan müxaliflər bir rejim tankını və zirehli maşını məhv edib, bir tankı da ələ keçiriblər.

Hazırda bölgədə rejim qüvvələri ilə şiddətli qarşıdurmalar davam edir.

Serakib rayonu, Şam və Hələbi birləşdirən M5 avtomobil yolunun və İdlib-Latakiya-Hələbi birləşdirən M4 magistralının keçdiyi strateji nöqtədə yerləşir.

Türk ordusunun Suriyadakı müxalifləri dəstəklədiyini açıqlayan Rusiyanın Suriyadakı Tərəflərin Uzlaşması Mərkəzi bəyanat yayaraq Ankaranı müxalifləri dəstəkləməyi və silah göndərilməsini dayandırmağa çağırıb.

Türkiyənin müxaliflərə artilleriya ilə dəstək verdiyi ifadə edilən açıqlamada Rusiya döyüş təyyarələrinin müxalifləri vurduğu qeyd edilib.

Rusiyanın açıqlamasından qısa müddət sonra Türkiyə Milli Müdafiə Nazirliyi "İdlib bölgəsindəki qüvvələrimizə hava hücumu nəticəsində 2 qəhrəman silahdaşımız şəhid oldu, 5 silahdaşımız yaralandı" - deyə bildirib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Paşinyan Xankəndinin tarixi barədə bunları bilmədiyi üçün Əliyev Münhendə onu pis vəziyyətə saldı

***Qasım Hacıyev:*** *"Cənab Prezident Xankəndinin ermənilərlə heç bir əlaqəsinin olmadığını tarixi faktlarla bir daha dünyanın diqqətinə çatdıraraq Paşinyanın yalanını ifşa etdi"*

**Tarixi Azərbaycan torpağı olan Dağlıq Qarabağ erməni işğalında olsa da, respublikamızın ayrılmaz tərkib hissəsidir. Məlum olduğu kimi, ermənilər işğal altında saxladıqları Dağlıq Qarabağın şəhər və rayonlarının adlarını erməniləşdirməyə cəhd edirlər. Faktiki isə həmin rayonların, şəhərlərin adları türk-Azərbaycan mənşəlidir.**

Ermənilərin onların adlarını dəyişdirib hər hansı bir şəklə, formaya salmasından asılı olmayaraq, o yerlərin, ərazilərin, şəhər, rayon, qəsəbə və kəndlərin adları dəyişməzdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev keçirdiyi bütün görüşlərdə Dağlıq Qarabağ problemi ilə bağlı müzakirələr aparılarkən, birmənalı olaraq, Dağlıq Qarabağın özünün, eləcə də oradakı şəhər və kəndlərin qədim adlarının türk mənşəli olduğunu vurğulayıb. Hazırda işğal altında olan Xankəndi şəhərinin adının birbaşa türk mənşəli olmasının əlavə şərhə ehtiyacı yoxdur. Hazırda ermənilərin "Stepanakert" adlandırdıqları Xankəndi barədə də Ermənistanın Baş naziri N.Paşinyan bir sıra sərsəm fikirlər irəli sürmüşdü, həm həmin zaman, həm də sonrakı dönəmlərdə Azərbaycan Prezidenti İlham Əliyevin sərrast məntiqi qarşısında Paşinyan aşkarcasına sarsıntı keçirmişdi.

Tarixi savadsızlığı ilə yanaşı, həm də saxtakarlıq yolu tutan Paşinyanın sərsəm fikirlərinin bir qara qəpik qiyməti yoxdur. Prezident İlham Əliyev Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Dağlıq Qarabağ problemi ilə bağlı debatda Paşinyanı bir daha öz faktları, tarixi bilgiləri və həqiqəti söyləməklə mat qoydu, məğlub vəziyyətə saldı. Belə ki, Xankəndinin adını erməniləşdirməyə cəhd göstərən Paşinyan Prezident İlham Əliyevdən aldığı tutarlı cavab nəticəsində susmağa məcbur oldu. "...Şaumyana gəlincə. Cənab Baş nazir indicə qeyd etdi ki, Dağlıq Qarabağı Azərbaycana vermək qərarını Stalin verib. Bu, səhvdir. Bir daha Qafqaz Bürosunun qərarına baxın, 1921-ci il iyul, orada deyilir ki, Dağlıq Qarabağı Azərbaycanda saxlamaq, Azərbaycana vermək yox. Əgər o, Stalini belə çox bəyənmirsə, qəribədir ki, niyə Şaumyanı belə çox bəyənir? Çünki Şaumyan bolşeviklərdən biri idi. O, günahsız azərbaycanlıları qətlə yetirmiş şəxs idi. Bugünkü Dağlıq Qarabağın qondarma paytaxtı onun adı ilə adlandırılıb. Sual olunur: əgər Dağlıq Qarabağ qədim Ermənistan ərazisidirsə, niyə paytaxtın adı qədim erməni adı ilə adlandırılmayıb. Çünki paytaxtın qədim adı Xankəndidir - Xanın kəndi. Stepanakert, çünki Şaumyanın adı Stepan idi, kert Ermənistanda şəhər deməkdir, elə deyilmi? Stepanakert həmin bolşevikin adı ilə adlandırılıb. Bu bir daha onu sübut edir ki, həmin ərazilərdə heç bir erməni tarixi irsi yoxdur və mənim başladığım məqama gəldikdə bu tarixi məsələ münaqişənin necə həll olunmalı olduğunu başa düşmək üçün mühümdür..." - deyə Prezident İlham Əliyev qeyd edib.

Azərbaycan Milli Elmlər Akademiyasının Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq bölməsinin rəhbəri, professor Qasım Hacıyev "Bakı-Xəbər"ə bildirdi ki, Paşinyan da digər erməni şovinistləri kimi yalan danışmaqda mahir olsa da, Azərbaycan Prezidentinin söylədiyi həqiqətlər qarşısında pərt vəziyyədə düşdü. Xankəndinin tarixən ermənilərə heç bir bağlılığı olmadığını deyən Q.Hacıyevin sözlərinə görə, ermənilər Dağlıq Qarabağa, eləcə onun şəhərlərindən biri olan Xankəndinə "Gülüstan" və "Türkmənçay" müqavilələrindən sonra köç ediblər.

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın Xankəndi şəhərinin erməniləşdirilməsi, onun adının dəyişdirilməsi ermənilər üçün heç bir müsbət nəticə vermir. Q.Hacıyev vurğuladı ki, 1991-ci il dekabrın 26-da Ermənistan silahlı qüvvələri və Qarabağdakı erməni separatçıları tərəfindən işğalından sonra yaradılan qondarma quruma paytaxt kimi Xankəndi şəhəri seçilib. "Cənab Prezident Xankəndinin ermənilərlə heç bir əlaqəsinin olmadığını tarixi faktlarla bir daha dünyanın diqqətinə çatdıraraq Paşinyanın yalanını ifşa etdi. Yeri gəlmişkən deyim ki, 1923-cü ildə ermənipərəst Kirovun dəstəyilə Xankəndinin adı da dəyişdirilərək Stepanakert edilir. Şəhərə verilən adın onunla heç bir əlaqəsi yoxdur. Xanın kəndi hara, daşnak-bolşevik Stepan Şaumyan hara?".

İnzibati cəhətdən Xankəndi şəhər əhatə dairəsinə Xankəndi şəhəri və Kərkicahan şəhər tipli qəsəbəsi daxildir. Q.Hacıyev vurğuladı ki, Xankəndi digər Azərbaycan şəhərlərinin əksəriyyətindən nisbətən cavan olması ilə fərqlənir. Arxiv sənədlərinə görə, şəhər XVIII əsrin axırlarında o dövrdə müstəqil Azərbaycan dövlətlərindən biri olan Qarabağ xanlığı başçılarının - xanların istirahəti üçün yaşayış məskəni kimi salınır. Xanların fəaliyyətinə maksimum şərait yaradılması üçün məskən xanlığın paytaxtı Pənahabadın (indiki Şuşanın) 10 kilometrliyində, nisbətən dağ ətəyində salınır. Bu zaman onun xanlığın digər vacib şəhər və kəndlərinə, Ağdama, Xocalıya, Malıbəyliyə, Kərkicahana yaxın olması da əsas götürülüb. Belə ki, yeni yaşayış məntəqəsi kimi digər yaşayış məntəqələrində də ancaq yerli əhali, azərbaycanlılar yaşayırdı. "İlk illər yeni yaşayış məskənində ancaq xan ailəsi və onun yaxınları yaşadığından, el arasında "Xanın kəndi" kimi tanınır. Xankəndi xanın kəndi deməkdir və bu sözün də birbaşa türk-Azərbaycan sözü olduğu məlumdur. Onu da qeyd edim ki, xanın kəndi olan bu yaşayış məskəni qısa bir müddətdən sonra Xankəndi adını alır.

Yəni həmin dövrdə burada erməni olmayıb ki, onun adı erməni dilində olsun. Paşinyan Şaumyan söhbəti ilə özünü tamamilə ifşa etdi. Gördüyümüz kimi, onlar Stepan Şaumyandan on əlli yapışıblar. Çünki onun əli yüzlərlə türkün, müsəlmanın qanına batıb. Şaumyan bolşevik olmaqdan çox daşnak idi və o, bolşevik adı altında öz daşnak niyyətlərini həyata keçirib". Q.Hacıyev qeyd etdi ki, Qarabağ xanlığı Rusiyaya birləşdirildikdə Xankəndi sonuncu Qarabağ xanı Mehdiqulu xanın arvadı Pəricahan bəyimə bağışlanır. Qarabağ xanlığını zorla Rusiya imperiyasına birləşdirən 1813-cü il "Gülüstan" müqaviləsinə qədər Xankəndi ancaq xan ailəsinin və ona yaxın azsaylı əyanların yaşadığı kiçik yaşayış məskəni kimi formalaşmışdı. Rusiyanın Qarabağı işğal etməsi bütün bölgələrə olduğu kimi, Xankəndinin də taleyinə ciddi təsir edir. Əvvəlki həyat tərzi dağıdılır, Azərbaycan cəmiyyəti üçün ənənəvi olan sülalələr bölgüsü qadağan edilir, hər şey imperiyanın maraqlarına tabe etdirilir. Eyni zamanda, keçmiş xanlıq ərazisində tez-tez baş verən üsyanların qarşısını almaq üçün bütün ərazi boyu hərbi hissələr yerləşdirilməyə başlayır. Onların biri də Xankəndində yerləşdirilir. Yer hərbi hissə üçün çox əlverişli idi. Bir tərəfdən çara tabe olmaq



*"1923-cü ildə ermənipərəst Kirovun dəstəyilə Xankəndinin adı da dəyişdirilərək Stepanakert edilir"*

istəməyən Şuşanı və ətrafdakı xeyli Azərbaycan məskənini nəzarətdə saxlamaq mümkün idi. Digər tərəfdən, Xankəndiyə İrandan köçürülən və rus hərbi bazalarında onlara qulluq edəcək erməni ailələrini yerləşdirmək planı var idi. Çar çinovniklərinə digər bölgələrdə olmasa da, Xankəndidə etnik proporsiyanı müəyyən qədər pozmaq mümkün oldu. 1813-cü ildə Xankəndidə heç bir erməni və rus ailəsi yaşamasa da, artıq 1847-ci ildə orada 80 erməni, 52 rus ailəsinin yaşadığı ev və kilsə var idi. Rusiya işğalından dərhal sonra orada çar ordusunun Qafqaz Süvari Diviziyasının qərargahı və kazarmaları yerləşdirildi. "Ermənilər və rus zabitləri yaşayış məskənini "qərargah" adlandırsalar da, 1847-ci il Çar Rusiyası xəritələrinə qəsəbə rəsmi şəkildə Xankəndi adı ilə düşür. Çar işğalından sonra böyüyən Xankəndi şəhərinə, bir qayda olaraq, İrandan köçürülən ermənilər yerləşdirilir, etibar doğurduqlarına görə çar ordusunun hərbi hissələrində və dövlət idarələrində işlə təmin edilirdilər. 1900-cü ildə Xankəndidə artıq 3 min əhali yaşayır, hətta ikisinifli məktəb də fəliyyət göstərirdi. Şəhərdə 1-ci Sujeno-Vladiqafqaz Tersk kazak qoşun postu yerləşdirilir. Çar Rusiyasının, sonra isə Sovet imperiyasının məqsədli yeridilən etnik siyasəti nəticəsində ötən əsrin əvvəllərində Xankəndidə erməni və rus əhalisinin sayının artırılmasına meyl göstərilir. Amma, bununla belə, onların sayı azərbaycanlıların sayından üstün ola bilmir. Xankəndidə xeyli sayda xan nəslinin nümayəndəsi, azərbaycanlı ziyalılar, musiqiçilər və sənətkarlar yaşayırdılar. Məqsədli təcrid siyasətinə baxmayaraq, azərbaycanlılar Xankəndidə ciddi söz sahibi idilər və hakimiyyət onlarla hesablaşmalı olurdu".

Qeyd edək ki, başqa tarixçilər vurğulayırlar ki, Sovet hakimiyyəti illərində erməni millətçi dairələrinin Azərbaycan torpaqlarına iddiası Lenin, Stalin və Orconikidzenin dəstəyilə yeni forma almağa başladı. Buna 1920-ci ildə Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi olmuş erməni Anostas Mikoyanın və 1921-1925-ci illərdə həmin vəzifəni tutmuş ermənipərəst bolqar Sergey Kirovun apardığı siyasət də rəvac verdi. Bu siyasət nəticəsində 1923-cü il iyulun 4-də Rusiya Kommunist Partiyası Mərkəzi Komitəsi Zaqafqaziya Bürosunun iclasında Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin taleyi məsələsi müzakirə edildi. Azərbaycan torpağının taleyini buna müstəsna hüququ olan Azərbaycan xalqı deyil, siyasi təşkilatın bürosunun 9 nəfər üzvü həll etməyə girişdi. Onların isə 3-ü erməni, 3-ü gürcü, 1-i bölgəyə tamamilə yad olan bolqar, ancaq biri - Nəriman Nərimanov azərbaycanlı idi. Bu çoxluq isə həmin iclasda bütün qanunları və reallıqları kənara qoyaraq Dağlıq Qarabağı Ermənistana vermək qərarına gəlir. Ancaq N.Nərimanovun Moskvaya qəti etirazı bir gün sonra büronu əvvəlki qərarını ləğv edərək bölgəyə muxtariyyat verilməklə Azərbaycanın tərkibində saxlamaq qərarını verməyə məcbur edir.

Görünür, Lenin və Stalin artıq İrəvan, Zəngəzur və Göyçəsi əlindən alınmış Azərbaycanın Qarabağ itkisində gərgin situasiyanın yaranacağını nəzərə alırdılar. Həmçinin, Azərbaycan rəhbərlərinin kənardan gəlmə - 1921-ci ildə A.Mikoyan, 1921-1925-ci illərdə isə S.Kirov olması respublikanı ikinci Ermənistan kimi qəbul etmələrinə şərait yaradırdı.

Qeyd edək ki, ermənipərəst Kirovun dəstəyilə qısa bir zamandan sonra Xankəndinin adı da dəyişdirilərək Stepanakert edilir. Belə ki, 6 oktyabr 1923-cü ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə DQMV-nin erməni əhalisinin "müraciəti" nəzərə alınaraq Xankəndi qəsəbəsinin adı dəyişdirilərək Stepanakert adlandırıldı. Nəyə görə bütün vilayət əhalisinin deyil, ancaq erməni əhalisinin müraciətinin nəzərə alınması sualına isə cavab yoxdur. Bu zaman Stepan Şaumyanın Azərbaycana 1914-cü ildə gələrək 1918-ci ildə yoxa çıxdığı, 1917-1918-ci illərdə Azərbaycan xalqına qarşı qətliamın təşkilatçısı olduğu, onun Dağlıq Qarabağla, konkret olaraq Xankəndi ilə heç bir əlaqəsi olmadığı respublikanın o vaxtkı rəhbərliyini qətiyyən maraqlandırmırdı. Elə indi də erməni işğalçılarının işğal altında olan Xankəndini bolşevik və qətliam törədicisi Şaumyanın adı ilə Stepanakert adlandırması onların əsl mahiyyətindən xəbər verir. Ancaq bütün Sovet dövründə Azərbaycan ictimaiyyəti şəhəri qeyri-rəsmi olaraq Xankəndi adlandırmaqda davam edirdi. Sonralar tarix sübut etdi ki, Moskvanın məqsədi Azərbaycanın ərazi bütövlüyünü qorumaq yox, onun içərisində erməni millətçiliyinin dayağı olaraq, respublikaya daim problem yaradacaq mərkəzin yaradılması idi. DQMV yaradılandan SSRİ dağılanadək nəinki Xankəndinin, hətta vilayətdəki irili-xırdalı bütün təşkilatların rəhbərləri ancaq erməni millətindən olan şəxslər təyin edilirdilər...

Xankəndinin sürətlə böyüməsi nəticəsində 1978-ci ilin may ayında Xankəndi şəhər statusunu aldı. Şəhər Xankəndi rayonu tabeliyindən çıxarıldı, həmin rayonun adı isə dəyişdirilərək Əsgəran rayonu adlandırıldı.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Paşinyanın 2005-ci il yazısı - "Mən əcdadlarıma nifrət edirəm"...

## Elman Nəsirov: "Bu, Paşinyanın özünü inkar etməsi deməkdir"

**Məlum olduğu kimi, Münhen Təhlükəsizlik Konfransında Azərbaycan Prezidenti İlham Əliyevin 20-ci əsrdə Dağlıq Qarabağla bağlı baş verən tarixi hadisələri xatırlatması fonunda Ermənistan Baş naziri Nikol Paşinyan erməni əfsanələrindən misal gətirərək iddia edib ki, guya Tiqranın vaxtında regionda yalnız ermənilər və gürcülər olub.**



Bu arada Paşinyanın "erməni hökmdarı" Böyük Tiqrana "sığınması" bəzi araşdırmalara yol açıb. Məlum olub ki, tarixdə heç də müsbət şəxsiyyət və böyük sərkərdə kimi xatırlanmayan Böyük Tiqranın ermənilərə heç bir aidiyyətinin olmaması aydındır. Ancaq məsələ burasındadır ki, Nikol Paşinyanın özünün saxta tarixə "istinad etməsi" vaxtilə yazdığı məqalələri bir daha gündəmə gətirib. Nikol Paşinyan bu məqaləsini özünün redaktoru olduğu "Aykakan Jamanak" qəzetində 9 dekabr 2005-ci ildə çap etdirib. Paşinyan yazısında bildirib ki, əcdadlarına nifrət edir və bunun səbəbini belə əsaslandırıb: "Bizim əcdadlarımız bizə, sadəcə, belə soyqırımlar, alçaldılmalar, satqınlıqlar və əxlaqsızlıqlar ehtiyatı miras qoyublar. Belə görünür ki, bunu aradan qaldırmaq çətin, həddən artıq çətindir.

Mən bizim atalarımızı qınayıram və onları lənətləyirəm. Çünki onlar bizim bu gün daha ləyaqətli və qürurlu yaşamağımız üçün heç bir şey etməyiblər. Bizim əcdadlarımız, ən azından, öz nəsillərinin qeydinə heyvanların instiktiv şəkildə öz nəsillərinin qeydinə qaldığı kimi də qalmadı. Mən bizim əcdadlarımızı tərif edən hər kəsi qınayıram. Bununla da, sadəcə, bundan sonrakı nəsillərin layiqli və güclü vətənə sahib olmaq hüququnu inkar edir, bizə, yaşayanlara isə gələcək nəsillərə heç bir şey vəsiyyət etməmək haqqını bəxş edirlər. Əcdadlarımızı tərənnüm etməklə onlar indiki erməni məmurlarının təkəbbürlü gədəçələri kimi primitiv tərbiyə almamış oğlunun xəyanətinə məruz qalan Böyük Tiqran adlandırılan şəxsin öz tacını Roma hökmdarının ayağı altına atdığı həmin vaxtdan başlayan və artıq iki min ildən artıqdır içində olduğumuz bu sonsuz prosesə, sadəcə, yeni təkan verirlər. Mən əcdadlarımızı lənətləyirəm".

Göründüyü kimi, Paşinyanın saxtakarlığı və içüzü bir daha bəlli oldu. Məlum oldu ki, Paşinyan yalan üzərində təbliğat aparır. Misal çəkdiyi Tiqranı bir vaxtlar tamamilə mənfi mənada təqdim edib.

*"Belə çıxır ki, ya onun yaddaşı doğrudan da çox korlanıb, ya da onda, ümumiyyətlə, məntiq yoxdur"*

Məsələyə münasibət bildirən millət vəkili Elman Nəsirovun sözlərinə görə, bir daha məlum oldu ki, Paşinyan özünü inkar edir: "Münhen Təhlükəsizlik Konfransında Azərbaycan və Ermənistan prezidentlərinin dialoqu bir sıra həqiqətlərə işıq saldı. Məlum oldu ki, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun professoru İlham Əliyevlə Yerevan Dövlət Universitetinin bakalavr ikinci kurs tələbəsi üzüzə gəlib. Sözün həqiqi mənasında, Paşinyan şparqalkadan istifadə edən savadsız bir tələbə vəziyyətində idi. Bütün parametrlər üzrə Azərbaycan Prezidentinin öz rəqibindən üstün olması göz qabağında idi. Prezident İlham Əliyev Paşinyana həm tarix dərsi keçdi, həm də siyasət və hüquq dərsi. Paşinyanın səsləndirdiyi cılız arqumentlər bir çox hallarda onun öz əleyhinə yönəldi. Sözügedən debatda Paşinyan Tiqrandan danışdı. Ancaq məlum olur ki, Paşinyan vaxtilə yazdığı məqaləsində Tiqrana və ümumiyyətlə, əcdadlarına nifrət edir.

Dəfələrlə müşahidə etmişik ki, Paşinyan özünü inkar edən fikirlər səsləndirir. Bu da Paşinyanın özünü inkar etməsi deməkdir. Məsələn, bir fikrində deyir ki, Dağlıq Qarabağ danışıqlarda tərəf olmalıdır. Başqa bir çıxışında qeyd edir ki, "Dağlıq Qarabağ Ermənistandır". Məlum olur ki, Paşinyan özünü təkzib edən bir insandır. Belə çıxır ki, ya onun yaddaşı doğrudan da çox korlanıb, ya da onda, ümumiyyətlə, məntiq yoxdur. Belə bir adam bu gün Ermənistana rəhbərlik edir. Görün vəziyyət nə yerə çatıb ki, Paşinyanın ölkəni biabır etdiyini tək opponentləri deyil, tərəfdarları da etiraf edirlər".

***Vidadi ORDAHALLI***

# Ciddi danışıqlara oturanadək Ermənistana borc və qrantların verilməsinə beynəlxalq qadağa - təcavüzkarla bağlı yeni ideya...

**"Yerevan danışıqlarda ciddi şəkildə iştirak edənədək Ermənistana beynəlxalq borcların və qrantların verilməsi dayandırılmalıdır". Bunu amerikalı ekspert Piter Teys Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələrini şərh edərkən deyib.**



## Məhəmməd Əsədullazadə: "Vaşinqton bu mövqeyi reallaşdırsa, regionda siyasi mənzərə dəyişə və Ermənistan ciddi təzyiqlərə məruz qala bilər"

Onun fikrincə, Prezident İlham Əliyev çıxışında ermənilərin tarixi manipulyasiyaları və son otuz il ərzində Azərbaycana qarşı dezinformasiya kampaniyası ifşa olunub: "Prezident İlham Əliyev yüksək ixtisaslı, unikal demokratik dövlət xadimidir. Çiçəklənmə, multikulturalizm və heyrətamiz tarixi irs Azərbaycanı hər kəsi ruhlandıran müstəsna məkana çevirir".

P.Teys qeyd edib ki, N.Paşinyan qarşısıalınmaz korrupsiyadan, mütəşəkkil cinayətkarlıqdan, iqtisadi azalmadan və yüksək işsizlik səviyyəsindən əziyyət çəkən ölkəni təmsil edir: "Bu cür qaranlıq reallıqlar Ermənistanı Avropanın ən təhlükəli yerlərindən biri, eyni zamanda, Cənubi Qafqazda qeyri-sabitliyin mənbəyi edir".

Ekspert əlavə edib ki, mövcud status-kvo dayandırılmalıdır və BMT Təhlükəsizlik Şurası Ermənistanın Azərbaycana qarşı təcavüzünün humanitar və ekoloji nəticələrini aradan qaldırmalıdır: "Ermənistan hökumətinin üzvlərinə qarşı iqtisadi və siyasi sanksiyalar tətbiq edilməlidir. Yerevan danışıqlarda ciddi şəkildə iştirak edənədək Ermənistana beynəlxalq borcların və qrantların verilməsi dayandırılmalıdır. Ermənistanın Azərbaycana qarşı qlobal miqyasda dezinformasiya kampaniyası və siyasi manevrlərinə son qoyulmalıdır, əks halda, Avropa təhlükəsizlik sahəsində ciddi problemlərlə üz-üzə qalacaq. Paşinyan üçün ən yaxşı resept Ermənistan qoşunlarını Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarmaq və səylərini ölkənin iqtisadiyyatının möhkəmlənməsinə yönəltməkdir".

Həqiqətən də təcavüzkar Ermənistanı ram etməyin yolu bu ölkəyə qarşı bir sıra sanksiyaların tətbiq edilməsindən keçir. Bu kimi təsir rıçaqları işə salınarsa, o zaman qarşı tərəfi danışıqlarda konstruktiv mövqe tutmağa məcbur etmək olar. Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadənin fikrincə, Ermənistanın işğalçı siyasətinə görə bu ölkəyə qarşı sanksiyaların tətbiqini

*"İşğalçı ölkənin cəzalandırılması yalnız bu istiqamətdə olmalıdır"*

Azərbaycan daim qeyd edir: "Məhz ABŞ-da ekspert səviyyələrində bu məsələnin qaldırılması ədalətin bərpa edilməsidir. Hesab edirəm ki, Ermənistanın işğalçı siyasəti regionda və Avropanın qonşuluğunda ciddi təhdid mənbəyi yaradır. Bu, Qərbin regionda siyasi-enerji maraqlarına təhlükədir. Məhz ABŞ regionda Ermənistanın bu siyasətinin qarşısını almaqdan ötrü mütləq şəkildə sanksiyalar tətbiq etməlidir. İşğalçı ölkənin cəzalandırılması yalnız bu istiqamətdə olmalıdır. Çünki Ermənistan Avropa və ABŞ-ın maraqlarına qarşı regionda destruktiv siyasət aparır. Qarabağ münaqişəsinin nizamlanmasında bütün səyləri sabotaj edərək Qərbin ərazi bütövlüyü prinsiplərini qəbul etmir. Vaşinqton bu mövqeyi reallaşdırsa, regionda siyasi mənzərə dəyişə və Ermənistan ciddi təzyiqlərə məruz qala bilər. Rəsmi Bakı bu istiqamətdə iş aparmalı, Konqresdə məsələnin qaldırılmasına çalışmalıdır".

***Vidadi ORDAHALLI***

**Məlum olduğu kimi, 2020-ci ilin 15 fevral tarixində Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr keçirilib. Müzakirələrdə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan iştirak ediblər.**

# Paşinyanın məğlub edildiyi Münhen debatından çıxan böyük sual - Qarabağ probleminin dinc həll perspektivi nə qədər qalıb?



## *Elşən Mustafayev: "Bu müzakirədən bəlli oldu ki, ərazilərimizi azad etmək üçün başqa bir variant qalmayıb"*

Müzakirə zamanı Prezident İlham Əliyev N.Paşinyanı gerçək tarixə söykənən faktlarla susdurub.

Debat zamanı tərəflərin başlıca müzakirə predmeti Dağlıq Qarabağ konflikti oldu. Ermənistanın dövlət başçısı yenə də öz ampluasında idi. Mahiyyət etibarilə bəlli oldu ki, o nəinki həqiqətləri qəbul edir, hətta müxtəlif yalanları uydurmaqla problemin həllindən maksimum yayınmağa çalışır. Həmin debatdan bir çox nəticə əxz edildi. Debat Qarabağ probleminin dinc həlli perspektivinə ümidlərin nə dərəcədə qalması ilə bağlı hansı real mənzərəni ortaya qoydu?

Politoloq Elşən Mustafayev "Bakı-Xəbər"ə bildirdi ki, biz adətən bu tip danışıqlarla bağlı məlumatları bir neçə mənbəyə ötürüləndən sonra alırdıq: "Yəni, adətən, bu tip konfliktlərlə bağlı danışıqlar bağlı qapılar arxasında keçirilir. Mediaya isə görüşlərlə bağlı razılaşdırılmış məlumatlar ötürülür. Dağlıq Qarabağ konfliktində də belə idi. Qeyd olunurdu ki, Azərbaycan tərəfi dəfələrlə belə formatda görüşün keçirilməsinə razı olub, ancaq Ermənistan razılaşmırmış. Biz Münhendə bu formatı görə bildik. Həmin debat vəziyyətin hansı yerdə olduğunu üzə çıxardı. Nəticə nədir? Azərbaycan tərəfi haqlı tələblərində israrlıdır. Biz ölkəmizin ərazi bütövlüyünü təmin etmək istəyirik. Bunu həm hüquqi, həm də mənəvi cəhətdən Ermənistandan tələb edirik. Ermənistan isə işğala haqq qazandırmaq üçün müxtəlif variantlara əl atır. Buna görə də Paşinyanın Münhendə düşdüyü vəziyyətlə üzləşir.

Prezident İlham Əliyevin ortaya qoyduğu faktlar konkret tarixi sənədlərə söykənir. Ölkə başçısı Dağlıq Qarabağın Azərbaycana məxsus olmasını elmi və tarixi dəlillərlə, əsaslandırılmış şəkildə izah etdi. Dağlıq Qarabağla bağlı məlumatı olmayanlara belə məlum oldu ki, Dağlıq Qarabağ həmişə Azərbaycanın tərkibində olub və bu ərazilər Ermənistanın işğalına məruz qalıb. Amma cavabında nə gördük? Gördük ki, dili topuq vuran işğalçı tərəf heç bir sənədə əsaslanmayan fikirlərlə populist çıxışlar etdi. Bəlli oldu ki, Paşinyan da Ermənistanın əvvəlki rəhbərləri kimi işğal niyyətindən əl çəkməyəcək.

**Bu debatda nöqtə qoyuldu ki, Ermənistan özbaşına Dağlıq Qarabağ problemini sülh və ya danışıqlar yolu ilə həll etməyə qadir deyil. Bu müzakirədən bəlli oldu ki, ərazilərimizi azad etmək üçün başqa bir variant qalmayıb. Sülhlə bunun mümkünlüyü inandırıcı sayılmır. Azərbaycanın tam haqqı çatır ki, öz ərazi bütövlüyünü hərbi yolla bərpa etsin".**

***Məhəmmədəli QƏRİBLİ***

**ATƏT-in Minsk Qrupu Dağlıq Qarabağ münaqişəsində yalnız iki tərəfi tanıyıb - Ermənistan və Azərbaycanı. Bunu ATƏT-in Minsk Qrupunun ABŞ-dan sabiq həmsədri Metyu Brayza Ermənistanın Baş naziri Nikol Paşinyanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələrində açıqlamalarını şərh edərkən deyib.**

# Sabiq amerikalı həmsədr Ermənistan liderlərinin çoxillik yalanını ifşa etdi - Qondarma "DQR" heç vaxt danışıqlar tərəfi olmayıb



## *Elşən Manafov: "Bütün bunlar illüziyadır və erməni tərəfinin görmək istədiyi, amma reallıqda baş verməyən hadisələrdir"*

O bildirib ki, Minsk Qrupunun danışıqlarında yalnız Bakı və Yerevanın nümayəndələri iştirak ediblər. Qondarma qurum danışıqlarda heç vaxt tərəf olmayıb: "Mən həmsədr olduğum müddətdə erməni tərəfi qondarma Dağlıq Qarabağ "nümayəndələri"nin iştirak etməsini istəyirdi, amma hər üç həmsədr bu müraciətləri qəbul etmirdi. Həmsədrlərin müqavimətindən sonra Yerevan bu tələbi irəli sürməyib".

M.Brayza hesab edir ki, bu cür bəyanatlarla Ermənistan hökuməti Azərbaycanı qıcıqlandırmadan və danışıqlar masasında yaranan müsbət impulsu zərbə altına qoymadan Qarabağ erməniləri üçün "işarə qoymaq" istəyir.

ABŞ-ın keçmiş həmsədrinin məlum açıqlaması bir daha Ermənistan tərəfinin yalanlarını ifşa etdi. Onlar zaman-zaman bəyan edirdilər ki, guya Robert Köçəryan prezident olmamışdan əvvəl qondarma qurum danışıqlarda tərəf olub. 1998-ci ildən sonra Köçəryan buna ehtiyac duymayıb.

Bununla yanaşı, Dağlıq Qarabağ erməniləri münaqişə tərəfi olsaydı, onda Ermənistan 1992-ci ildən ATƏT-in Minsk Qrupu çərçivəsində, eləcə də 1999-cu ildən başlayaraq iki dövlətin prezidentləri səviyyəsində indiyədək keçirilən 50-dən çox görüşdə iştirak edib müvafiq sənədləri imzalamazdı.

Məsələyə münasibət bildirən politoloq Elşən Manafovun sözlərinə görə, qondarma rejim heç vaxt danışıqlarda tərəf olmayıb, sadəcə, ermənilər hər zaman bunu istəyiblər: "O baxımdan Brayzanın səsləndirdiyi fikirlər reallığı əks etdirir və qarşı tərəfə ciddi zərbədir. Məlum olduğu kimi, Münhen konfransında Azərbaycan və Ermənistan dövlət başçıları arasında debat oldu. Debatlar zamanı bir daha məlum oldu ki, Ermənistan tərəfi yenidən Dağlıq Qarabağı danışıqların gedişində bir tərəf kimi görmək istəyir. Beynəlxalq ictimaiyyəti, o cümlədən, danışıqlarda vasitəçilik mövqeyindən çıxış edən ATƏT-in Minsk Qrupunu da inandırmağa çalışır ki, guya qondarma qurum haçansa danışıqlarda tərəf olub. O üzdən, separatçı rejim yenidən danışıqlarda tərəf olmalıdır. Bununla belə, Paşinyan debatda Dağlıq Qarabağ xalqı ifadəsi işlətdi. Prezident İlham Əliyev dərhal buna reaksiya verib bildirdi ki, belə bir xalq yoxdur. Dağlıq Qarabağda azərbaycanlı və erməni icmaları olub. Paşinyan iddia edir ki, guya 1994-cü ildə imzalanan Bişkek protokolunda separatçı tərəfin imzası olub. Sonrakı danışıqlarda da guya qondarma "DQR"in müdafiə naziri iştirak edib. Ancaq bütün bunlar illüziyadır. Bunlar erməni tərəfinin görmək istədiyi, amma reallıqda baş verməyən hadisələrdir. O vaxt ATƏT-in Minsk Qrupunda Rusiyanı təmsil edən Kazimirov da istəyirdi ki, separatçı qurum danışıqlarda tərəf olsun. Ancaq Azərbaycan buna razı olmadı. Qüvvədə olan beynəlxalq hüquq normalarına görə, Azərbaycan heç bir vəchlə onun torpaqlarını işğal etmiş separatçı rejimlə danışıqlara gedə bilməz.

*"O vaxt Kazimirov da istəyirdi ki, separatçı qurum danışıqlarda tərəf olsun"*

Əslində, burada qarşı duran tərəflər Azərbaycan və Ermənistan dövlətləridir. 1992-ci ilin martında Azərbaycan BMT-yə qəbul olunarkən bu qurum tərəfindən ölkəmizin ərazi bütövlüyü Qarabağla bir yerdə qəbul olunub. Yənu bu kifayətdir ki, danışıqların gedişində Ermənistan tərəfinin irəli sürdüyü sözügedən istəyin qarşısı alınsın. Ona görə də erməni tərəfinin bu mövqeyi Qarabağ danışıqlarında illüziya yaratmaqdan başqa bir şey deyil".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Münhen debatından sonra Ermənistan beynəlxalq təzyiqlərin labüd şəkildə artacağından möhkəm narahatdır...

**Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında Münhendə keçirilən debatlardan artıq bir neçə gün keçsə də, məsələ hələ də geniş müzakirə predmeti olaraq qalmaqda davam edir. Ermənistanın prosesə yanaşmasından belə bəlli olur ki, Münhen debatından sonra düşmən ölkə ona qarşı diplomatik təzyiq və hücumların daha da artacağından ciddi narahatlıq ifadə edir.**

Burada hesab edilir ki, əslində, Münhen debatı Erəmnistana qarşı diplomatik təzyiqlərin işə salınması baxımından Azərbaycan üçün mühüm bir cəbhə oldu. Çünki məhz burada Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistanın nə qədər əsassız bir mövqedə olması bütün dünyanın gözü qarşısında bir daha öz təsdiqini tapmış oldu. Ermənistanın "politik.am" nəşri də yazır ki, Paşinyanın Münhen debatında yol verdiyi səhvlər ölkəyə Qarabağ məsələsində baha başa gələcək: "Xülasə etməyə çalışsaq, Paşinyanın İlham Əliyevlə məlum Münhen debatına yekun vurmalı olsaq, o zaman onun çox səhvlərə yol verdiyi ortaya çıxar. 1. Əvvəla, Qarabağ münaqişəsinin həlli məsələsinin bu formatda müzakirə edilməsi göstərdi ik, konflikt tərəfləri məhz Ermənistan və Azərbaycandır. Qarabağ rejiminin burada tərəf olmadığını dünya aydın gördü. 2. Paşinyan ümumiyyətlə hazır deyildi, onun timsalında münaqişənin ilkin başlama tarixçəsi barədə məlumat verilmədi, ritorika sənəti axsayırdı. Əvəzində, Azərbaycan tərəfi daha inamlı davrandı. 3. Müzakirə dilini seçmək də səhv bir seçim idi. Paşinyan erməni dilində nitqi zamanı bəzi boşluqları neytrallaşdıra bilərdisə, ingilis dilində zəif çıxış etməsi bəzi problemlərə səbəb oldu. Paşinyanın ingilis dili biliyi zəif idi, bu da ingilis dilini daha yaxşı bilən İlham Əliyevə üstünlüklər qazandırdı. 4. Paşinyan Xocalı hadisələrini səhv şərh etdi, BMT-nin qətnamələri ilə bağlı İlham Əliyevə yaxşı müqavimət göstərə bilmədi. 5. Bundan başqa, Paşinyanın buraxdığı başqa bir yanlışlıq ona baha başa gəldi. Belə ki, o, Qafqaz bürosunun qərarından danışarkən Dağlıq Qarabağın Azərbaycana verildiyini dedi və daha sonra sözünü düzəldərək Ermənistana verildiyini bildirdi. Bu səhv Azərbaycan mediasında və sosial şəbəkələrdə Paşinyana qarşı istifadə olundu. 6. Həmçinin, Ermənistan baş nazirinin Dağlıq Qarabağ münaqişəsinin tarixi barədə erməni müəllif tərəfindən yazılan kitaba istinad etməsi müsbət hal deyil. Çünki münaqişə tərəflərindən birinin yazdığı kitab (kitabın müəllifi Şahen Avakyandır) beynəlxalq ictimaiyyət tərəfindən obyektiv qarşılanmayıb".

Elə rusiyalı siyasi ekspert Dmitri Fetisov da Münhen debatından sonra Ermənistanın ciddi zərbələr aldığını vurğulayır: "Münhen görüşünü diqqətlə izlədim və görüş faktının özü sevindirir. Burada Nikol Paşinyana iradlar daha çoxdur, çünki İlham Əliyev mütəmadi olaraq danışıqlara hazır olduğunu göstərib. Ancaq Paşinyanın hakimiyyətə gəlməsi ilə danışıqlar prosesi əhəmiyyətli dərəcədə yavaşlayıb. Birmənalı şəkildə İlham Əliyevin sonuncu görüşdə üstün olduğunu söyləyən ekspertlərlə razılaşıram. Bu həqiqətən də belədir. Azərbaycan prezidentinin böyük siyasi və diplomatik təcrübəsi var, Nikol Paşinyanda isə bunlar yoxdur. Hazırkı Ermənistan lideri heç vaxt diplomatiya ilə məşğul olmayıb, o, populizmlə məşğul olmağa öyrəşib. Azərbaycan prezidentinin mövqeyi dəqiq və təsdiqlənmiş haldadır. Ermənistanın baş nazirinin isə mövqeyi, sadəcə yoxdur. İrəvanın mövqeyinin maksimal dərəcədə qeyri-müəyyən olmasına çalışmaqla, Nikol Paşinyan Qarabağ mövzusunu öz siyasi maraqları naminə istifadə etməyə davam edir. Nikol Paşinyan müzakirə zamanı bir dəfə də olsun Dağlıq Qarabağı "Arsax" adlandırmayıb. Buna görə də Ermənistanda onu ittiham edirlər. Axı erməni tərəfi dünya ictimaiyyətinin "Arsax"ın nə olduğunu öyrənməsi üçün o qədər güc sərf etmişdi. Lakin Münhəndə bu alınmadı. Nikol Paşinyan çox gözəl başa düşdü ki, dünyada onu başa düşməyəcəklər. "Arsax" nədir? Yerli sakinlərdən başqa heç kim bunu anlamır və bilmir. İstənilən halda Ermənistanda Münhen zərbələrini uzun müddət unutmayacaqlar".

Bundan başqa, Münhendə Paşinyanın istinad mənbələrinin də yalan olmasına dair yeni faktlar İrəvanı daha da çıxılmaz bir duruma salır. Belə ki, Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Nikol Paşinyan Xocalı soyqırımı ilə bağlı danışarkən Azərbaycanın eks-prezidenti Ayaz Mütəllibova "istinad etmişdi":"90-cı illərin ortalarında Azərbaycanın keçmiş prezidenti Ayaz Mütəllibov Rusiyanın "Arqumenti i Fakti" qəzetinə müsahibəsində bildirmişdi ki, Xocalıdakı təxribat onu hakimiyyətdən uzaqlaşdırmaq üçün Azərbaycan müxalifəti tərəfindən hazırlanmışdı". Lakin Azərbaycan Prezidenti İlham Əliyev buna qətiyyətlə cavab verərək, onun iddialarının əsassız olduğunu bildirdi. Bunun ardınca "Arqumenti i Faktı" qəzetinin özü də Paşinyanın panel müzakirəsində Azərbaycanın birinci prezidenti Ayaz Mütəllibovla bağlı səsləndirdiyi fikirlərə münasibət bildirib. Nikol Paşinyana müraciət edən qəzet Ayaz Mütəllibovun 1995-ci ildə verdiyi müsahibədə Xocalıda baş verən qətliamla bağlı heç nə demədiyini bildirib. Bu faktın özü də Paşinyanın mövqeyinin sırf yalan üzərində qurulmasının növbəti vacib təsdiqi sayılır.

Başqa bir məsələ Paşinyanın "erməni hökmdarı" Böyük Tiqrana "sığınması" ilə bağlıdır. Tarixdə heç də böyük sərkərdə kimi xatırlanmayan Tiqranın ermənilərə heç bir aidiyyətinin olmadığı bəllidir. Bəzi elmi araşdırmalara görə Tiqran sak, bəzilərinə görə isə parfiyalıdır. Ancaq məsələ həm də burasındadır ki, Paşinyanın özü də Tiqrana qarşı qətiyyən müsbət mövqedə olmayıb. Nikol Paşinyan özünün redaktoru olduğu "Aykakan Jamanak" qəzetində 9 dekabr 2005-ci ildə çap etdirdiyi bir məqalədə qeydə aldıqları da bunu təsdiq edir. Burada o yazır: "Erməni xalqına siyasi və elmi tribunalardan edilən ən populyar müraciətlər tarixdən dərs çıxarmaq zərurətinə aid edilir. Erməni xalqı öz ziyalısına qulaq asmaqdan qəti şəkildə imtina edir və tarixdən nəticə çıxarmaqla bağlı çağırışların getdikcə daha populyar olması da bundan xəbər verir. Ola bilər ki, buna səbəb tarixdən nəticə çıxarmağa çağıran ziyalının daha sonra erməni xalqının qəhrəmanlıq tarixi barədə əfsanələr yazmağa, əcdadlarımızı tərif etməyə və ucaltmağa başlamasıdır. Ümumiyyətlə isə, əcdadlarımızı obyektiv qiymətləndirmək bir iş, onları tərifləmək tamam başqa işdir. Gəlin, əcdadlarımızı tərifləməyi dayandıraq və özümüzə çox praqmatik bir sual ünvanlayaq: bu əcdadlarımız bizə nə vəsiyyət etdi, özlərindən sonra nə qoyub getdilər? Heç bir şeydən daha artıq bir şey… Mən bizim atalarımızı qınayıram və onları lənətləyirəm. Çünki onlar bizim bu gün daha ləyaqətli və qürurlu yaşamağımız üçün heç bir şey etməyiblər. Bizim əcdadlarımız, ən azından, öz nəsillərinin qeydinə heyvanların instinktiv şəkildə öz nəsillərinin qeydinə qaldığı kimi də qalmadı. Mən bizim əcdadlarımızı tərif edən hər kəsi qınayıram. Bununla da sadəcə bundan sonrakı nəsillərin layiqli və güclü vətənə sahib olmaq hüququnu inkar edir, bizə, yaşayanlara isə gələcək nəsillərə heç bir şey vəsiyyət etməmək haqqını bəxş edirlər. Əcdadlarımızı tərənnüm etməklə onlar indiki erməni məmurlarının təkəbbürlü gədəçələri kimi primitiv, tərbiyə almamış oğlunun xəyanətinə məruz qalan Böyük Tiqran adlandırılan şəxsin öz tacını Roma hökmdarının ayağı altına atdığı həmin vaxtdan başlayan və artıq iki min ildən artıqdır ki, içində olduğumuz bu sonsuz prosesə sadəcə yeni təkan verirlər…Bəzən bizim biabırçı və alçaldıcı keçmişimizi qəhrəmanlıqlarla dolu kimi göstərən tarixçiləri anlayıram. Onlar həqiqi tarixin bizi sındıra, alçalda biləcəyini düşünürlər. Ancaq saxtakarlıq daha çox dağıntıya səbəb olur və bizə dayanmağa, minillik alçaldılmamızı qırmağa icazə vermir".

Paşinyanın özünün bu yanaşması onun əcdadları, o cümlədən həmin əcdadlarından biri saydığı Tiqrana qarşı mövqeyini aydın surətdə meydana qoyur. Məhz bu fonda onun Münhendə Tiqrana "sığınması" Ermənistanın özündə belə ikiüzlülük kimi qiymətləndirilir. Təbii ki, belə vəziyyətdə Paşinyan və digərlərinin Azərbaycan qarşısında duruş gətirməsi də mümkünsüzdür. Çünki erməni tərəfinin bütün arqumentləri sırf yalan üzərində qurulub və qəbul olunmur. Bu fonda Münhen görüşündən sonra daha çox sayda erməni anlamağa başlayıb ki, Azərbaycan rəhbərliyi çox güclüdür və bu ölkə prezidentinin siyasi, ideoloji, diplomatik, mənəvi-əxlaqi səviyyəsi Ermənistan dövlət başçısından dəfələrlə üstündür. Azərbaycan tərəfinin qətiyyətli mövqeyi qarşısında erməni tərəfi birmənalı şəkildə duruş gətirə bilməz. Bu durumda Dağlıq Qarabağ münaqişəsinin həlli modelinin işə salınmasına razılıq verməklə Ermənistan özünü də xilas edə bilər və Münhendəki kimi biabırçı duruma düşməz.

Bu modelə əsasən, öncə Dağlıq Qarabağ ətrafındakı rayonların işğaldan azad edilməsi və erməni silahlı qüvvələrinin oradan çıxması, sonra öz yurdlarından didərgin düşən azərbaycanlıların evlərinə qaytarılması mühümdür. Ardınca kommunikasiyaların açılması, sabitlik yaranandan sonra isə Azərbaycan qanunları çərçivəsində bölgənin statusunun Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi çərçivəsində həll edilməsi baş tutmalıdır. Elə Münhendə bu mövqe bir daha ən yüksək səviyyədə diqqətə çatdırıldı. Ermənistan bundan lazımi nəticələr çıxarmasa, daha çox diplomatik, ardınca isə sərt hərbi məğlubiyyətə məruz qalacaq.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Paşinyan 13 hərbçinin ölümündən sui-istifadə edərək özünə müxalif generalları bir-bir aşırır

**Məlumdur ki, Ermənistan hökuməti silahlı qüvvələrdə qeyri-döyüş itkilərinin artmasına dair aparılan müzakirələrdən sonra, kadr dəyişiklikləri də daxil olmaqla, bəzi qərarlar verib. Bu xüsusda baş nazir Nikol Paşinyanın tələbi ilə ölkə prezidenti Armen Sarkisyan artıq iki generalı tutduğu vəzifədən uzaqlaşdırıb.**

Onlardan biri Ermənistan Silahlı Qüvvələrinin Mənəvi-Psixoloji Təminat üzrə İdarəsinin rəisi Aleksan Aleksanyandır. Aleksanyanın vəzifədən uzaqlaşdırılması orduda baş verən sensasiyalı hadisələrin nəticəsidir. Belə ki, bu ilin əvvəlindən Ermənistan ordusunda 13 hərbi qulluqçu ölüb. Bütün ölüm faktları dinc şəraitdə qeydə alınıb.

Bununla yanaşı, Ermənistanın Hərbi Polis İdarəsinin rəisi general-mayor Artur Bağdasaryan da vəzifəsindən azad edilib. Bildirilir ki, Bağdasaryan hakimiyyət dəyişikliyindən sonra da hərbi polis sistemində korrupsiya əməlləri, kadr alveri ilə məşğul olub. Əməkdaşları heç bir əsas olmadan işdən azad edib, daha sonra bərpa etmək üçün 4-6 min dollar tələb edib. Heç kimin onun bu korrupsiya əməlləri və qanunsuzluqları barədə danışmağa, etiraz etməyə cürət tapmaması üçün bütün əməkdaşları qorxu altında saxlayıb. Hərbi polisin indiki və keçmiş əməkdaşlarının sözlərinə görə, Bağdasaryan keçmiş hərbi polis rəislərindən, xüsusilə Levon Yeranosyandan daha rüşvətxordur. Onun indiki əməkdaşlarının sözlərinə görə, kadr alverindən başqa, onlara ayrılan benzini də satıb. Bəzi məlumatlara görə, onun vasitəsilə aylıq 20-30 ton benzin satılır. Əldə edilən məlumatlara görə, Paşinyana, yaxud Tonoyana yazılan şikayət məktubları geri - Bağdasaryana qaytarılıb və o da şikayətçi hərbi polis əməkdaşlarını çağırıb, qisas alaraq haqq-hesab "çürüdüb". Amma o, indiyə qədər digər generallar tərəfindən himayə olunub. Xüsusən də Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Artak Davtyan tərəfindən. Xatırladaq ki, elə sonuncu da Paşinyanın hədəfindədir. Erməni mediası yazır ki, vəzifədən çıxarılan iki general da məhz Artak Davtyanın adamları sayılıb. Onların ardınca Artak Davtyanın da istefası gündəmdədir. Düzdür, sonuncu bununla razılaşmır və Paşiynana qarşı güclü müqavimət formalaşdırmaq istiqamətində addımlar da atır. Erməni hərbi ekspert Mher Akobyan bildirir ki, Davtyan Paşinyana qarşı digər generalları da cəlb edə bilsə, hakimiyyətlə ordu arasında qarşıdurma qaçılmaz olacaq: "Mən prinsipcə son günlərdə orduda baş verən hadisələrin hansısa daxili qüvvələrin sui-qəsdi ilə təşkil olunması halını istisna edirəm. Problem ondadır ki, hazırda orduda "köhnə" və "yeni" Ermənistanın müəyyən qədər toqquşması var, yəni ordu idarəetməsi hələ də hansısa qaydada köhnə standartlarla idarə olunur və bununla bağlı mən hərbi rəhbərliyin rolunu mənfi mənada ayırardım. Faktdır ki, orduda dəyişiklik üçün hərbi rəhbərliyin tam heyətdə dəyişməsi lazımdır. Bunu indiki generalitet istəmir. Ona görə də onların Paşinyana münasibəti mənfidir və müxalif mövqedədirlər". Keçmiş erməni döyüşçü Pavlik Manukyan isə qeyd edir ki, orduda heç bir şey dəyişməyib, eyni korrupsiyalaşmış generallar, əxlaqsızlar qalıb. Amma o, Paşinyanın da orduya rəhbərlik etmək haqqına sahib olmadığını vurğulayır: "Biz əsgərimizi bir dəfə də tək buraxsaq, ruhdan düşmüş və ümidini itirmiş əsgərə sahib olsaq, vətənimizi itirəcəyik. Qarnizon prokuroru vəzifəsinə orduda xidmət etməmiş, ordudan anlayışı olmayan bir şəxsi təyin edirlər. Əziz insanlar, bizə ordudan anlayışı olmayan və orduda xidmət etməmiş belə nazir, qərargah rəisi, ali baş komandan lazım deyil".

İndi maraq doğuran məsələ Paşinyanla generalitet arasında ziddiyyətin nə ilə nəticələnəcəyidir. Paşinyan hesab edir ki, generalitet yalnız onun ətrafında cəmləşməlidir. Fəaliyyət sahəsindən asılı olmayaraq köhnə hakimiyyətin yanında olan generallar isə inqilabçı hakimiyyətin hədəfindədir. Bu da onların Paşinyana qarşı birləşməsinə gətirib çıxarıb. Erməni ekspert Sasun Mikayelyan bu vəziyyətdə generalların Paşinyana qarşı sərt addımlar atmasını istisna etmir. Onun sözlərinə görə, Ermənistan hakimiyyəti tərəfindən ardıcıl olaraq proqramlaşdırılmış şəkildə erməni ordusunun təcrübəli yüksək vəzifəli heyəti yox edilir, ordunun zabit heyəti ləkələnir. Burada məsələnin daha bir maraq doğuran tərəfi odur ki, bir vaxtlar Ermənistanın baş naziri Nikol Paşinyanın hakimiyyətə gəlməsinə yardım edən qüvvələr də sıradan çıxarılır. Paşinyan mütləq mənada yeganə hakim qüvvə olmağı düşünür və inqilabda ona yardım edənləri də sıradan çıxarır. "Yerkrapah" hərbi təşkilatı ətrafında baş verənlər bunun real təsdiqidir. Məhz bu durumda "Qarabağ klanı" "Yerkrapah"ı öz sıralarına cəlb edərək onunla Paşinyana qarşı birləşməyi düşünür.



**Erməni mediası yazır ki, hadisələr bu səpkidə inkişaf edərsə, İrəvanda növbəti hakimiyyət dəyişikliyi qan tökülməsi hesabına baş verəcək. Hər halda, baş verənlər qarşıdakı dövr ərzində Ermənistan ictimai-siyasi həyatını silkələyəcək mühüm dəyişikliklərin olacağını istisna etmir. Hesab edilir ki, güc strukturlarının Paşinyana qarşı dayanması ölkə daxilində silahlı qarşıdurmanın olacağını da aydın şəkildə nümayiş etdirir.**

***Nahid SALAYEV***

# Azərbaycanda qızıla tələbat böyük sürətlə artır

**Dünya iqtisadiyyatında yaşanan gərginliklər fonunda qızılın qiymət artımı davam edir. Amma buna rəğmən, nəcib metala tələbin yüksəlməsi də müşahidə olunur. Məhz bu durumda, son məlumatlara əsasən, dünya bazarında qızılın 1 unsiyasının qiyməti 7 illik fasilədən sonra ilk dəfə 1 600 dolları keçib.**



Belə ki, əmtəə birjalarında qiymətli metal 1610,5 dollara qədər bahalaşıb.

Qiymətli metallar investorların koronavirusun yayılmasının dünya iqtisadiyyatına əhəmiyyətli dərəcədə mənfi təsir göstərəcəyinin narahatlığı fonunda bahalaşır. Xatırladaq ki, ötən ilin sonunda qlobal bazarda qızılın 1 unsiyasının qiyməti 1475 dollar səviyyəsində idi. Amma qısa müddətdə bu məhsulun qiymətində əhəmiyyətli artım qeydə alınıb. İndi maraq doğuran məqamlardan biri budur: dünya bazarlarında qızılın qiymət bahalaşması davam edəcəkmi?

Ekspertlərin böyük əksəriyyəti hesab edir ki, bahalaşmanın davam etməsini gözləmək olar. Çünki qızıl təlatümlü dövrlərdə həmişə investorlar üçün, belə demək olarsa, "güvənli liman" rolunu oynayıb. Digər tərəfdən, dünyada qaynar nöqtələrin sayı çoxaldıqca, geosiyasi gərginlik artdıqca, hərbi müdaxilələr ehtimalı yüksəldikcə, qızıla olan tələbat da artır, investorlar tez-tez bu metala müraciət edirlər. Eləcə də təcrübə göstərir ki, qızıldan fərqli olaraq, qiymətli kağızlar dünyada baş verən geosiyasi gərginliklərə daha həssas reaksiya göstərir. Təlatümlü dövrlərdə investorlar qiymətli kağızlardan vəsaitlərini çıxarıb qızıla yatırmağa üstünlük verirlər. Faktdır ki, hazırda dünyada müharibə təhlükələrinin, geosiyasi gərginliyin çox yüksək səviyyədə artdığını müşahidə etmək olar. Dünyada ticarət müharibələrinin də sengiməməsi qızıla tələbatı artırır. Başqa bir önəmli faktor budur ki, bir sıra ölkələr ehtiyatlarında qızılın payını davamlı şəkildə artırır. Bu da qızıl tələbini və beləliklə qiymətini yüksəldir.

Qeyd edək ki, Azərbaycan da qızıl ehtyatını artıran ölkələr sırasında yer alır. Ötən il ölkəmiz 50 tona yaxın qızıl alıb və Dövlət Neft Fondunun qızıl ehtyitları 100 tonu keçir. Fondun investisiya portfelində qızıl investisiyalarının çəkisi 11,4% təşkil edir. Amma cari il ərzində qızıla yatrılan vəsaitin həcminin daha da artması gözlənir. Digər tərəfdən, ölkə yerli zərgərlik sənayesinin inkişafında da maraqlıdır. Bu isə o deməkdir ki, qarşıdakı dövr ərzində Azərbaycanda qızıla tələb daha da artacaq. Elə bugünlərdə bir sıra dövlət rəsmiləri ilə sahibkarlar arasında "Azərbaycanda zərgərlik bazarının inkişaf perspektivləri: problemlər və imkanlar" mövzusunda görüş də keçirilib. Burada səslənən fikirlərdən belə bəlli olur ki, dövlət qızıl sənayesinin inkişafına genişmiqyaslı dəstək göstərməyə hazırlaşır. Belə ki, görüşdə çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov ölkəmizdə qeyri-neft sektorunun davamlı və sürətli inkişafının dövlət başçısı tərəfindən qarşıya qoyulan əsas vəzifələrdən olduğunu vurğulayıb. Dağmədən sənayesinin inkişafının ölkə iqtisadiyyatının şaxələndirilməsinin mühüm istiqamətlərindən olduğunu qeyd edib, bu sahədə dəyər zəncirinin yaradılması perspektivlərini diqqətə çatdırıb.

Nazir, həmçinin, zərgərlik sənayesində islahatların aparılmasının və əlverişli coğrafi mövqeyə, müasir nəqliyyat-logistika infrastrukturuna malik ölkəmizin bu sahədə regional mərkəzə çevrilməsinin əsas hədəflərdən biri olduğunu bildirib. O, beynəlxalq təcrübədən geniş istifadənin, stimullaşdırıcı tədbirlərin, şəffaf tənzimləmə siyasətinin həyata keçirilməsinin zərgərlik sənayesinin inkişafında, "kölgə iqtisadiyyatı"nın daha da azalmasında əhəmiyyətli olacağını vurğulayıb. Ekspertlər isə bildirir ki, Azərbaycanda zərgərlik məhsullarına tələb yüksəkdir. Ona görə də, bu sektorda islahatların davam etdirilməsi və xüsusən də zərgərlik məhsullarının istehsalı ilə məşğul olan sahibkarların təşviq edilməsinə ehtiyac var. Düzdür, qeyri-leqal sektorun leqallaşdırılması zərgərlik sektorunun inkişafına stimul yaradıb. Çünki əvvəlki dövrlərdə ölkəyə idxal edilən zərgərlik məhsullarının bir qismi qeydiyyatdan keçmirdi. Nəticədə bu, daxili bazarda rəqabətin pozulmasına gətirib çıxarırdı. Artıq bu halların qarşısı ciddi şəkildə alınıb. Qeyri-leqal sektorun və eləcə də qeyri-leqal idxalın leqallaşması prosesi gedib. Bu da sektorun inkişafını stimullaşdıran faktorlardan biridir. Amma dövlət bununla kifayətlənmir və zərgərik sektorunda çalışan iş adamlarını ucuz maliyyə resursları ilə də təmin etməyə hazırlışır. Elə bu fonda da ölkə daxilində qızıla tələbin əhəmiyyətli dərəcədə artması gözlənir. Hökumət hesab edir ki, bu sahədə çalışan sahibkarların təşviq edilməsi üçün onlara aşağı faizli kreditlərin təklif edilməsi mühümdür.

**Belə sahibkarların ucuz maliyyə resurslarına çıxış imkanları artarsa, zərgərlik sektorunun potensialından daha geniş şəkildə istifadə etmək mümkünləşər. Bu qəbildən stimullaşdırıcı amillərin artırılması zərgərlik sənayesinin inkişafında, şübhəsiz ki, yeni mərhələ açacaq. Məhz bu şəraitdə qızıla daxili tələbin daha da artması gözlənir. Bu səbəbdən Azərbaycanda xam qızıla tələbin həm dövlət, həm də yerli sənaye çərçivəsində əhəmiyyətli dərəcədə artımı qaçılmaz sayılır.**

***Ramil QULİYEV***

# "Məqalə mafiyası"nın qurbanı olan gənc alim və dissertantlar...

**Bu gün xaricdə yüksək indeksli elmi jurnallarda məqalə çap etdirmək hər bir dissertantın, doktorantın arzusudur. Əlbəttə, xarici elmi jurnallarda məqaləsi çıxan dissertantlar bununla öz elmi görüşlərini bölüşmək şansı əldə edirlər.**



***Aida Qasımova:*** *"Təcrübə göstərir ki, pirat jurnallar hətta yüksək qurumlarda indeksləşə də bilər, amma bu indeksləşmə adətən uzun çəkmir"*

***İlqar Orucov:*** *"Açığını deyim ki, artıq bununla bağlı bir bazar yaranıb, bir çox işbaz bu bazarda həmin sifarişləri qəbul etməklə..."*

Son dövrlər elmi iş müdafiə etmək və alimlik dərəcəsi almaq istəyən şəxslərin qarşısında qoyulan əsas tələblərdən biri xarici ölkələrdə məqalə nəşr etdirməkdir. Yəni dissertantların, doktorantların məqalələri mütləq xaricdə nəşr edilməlidir.

Amma onu da deyək ki, bir çox halda doktorant və dissertantlar yüksək indeksli elmi jurnallarda məqalə nəşr etdirmək istəyərkən başqa problemlə üzləşirlər. Burada problem gənc tədqiqatçıların elmi işlərinin pirat jurnallarda çap olunmasıdır. Deməkki, dünyada artıq "məqalə mafiyası" deyilən bir anlayış da formalaşıb və həmin problem Azərbaycan dissertantlarından da yan keçmir.

Məsələ burasındadır ki, elmlə məşğul olan, savadlı gənclər xarici jurnallara əziyyətlə yol tapa bilsələr də, təsadüfən elmə gələn və dissertasiyasını başqasına yazdıran adamlar xaricdəki pirat jurnallarda məqalə dərc etdirirlər. Nüfuzlu alimlərin bildirdiyinə görə, həmin şəxslər bu məqalələri pul müqabilində nəşr etdirirlər. Hətta bir məqaləyə görə xarici pirat jurnala 1000-2000 manat ödəyənlər də var. Bu da faktdır.

Tanınmış-alim, professor Aida Qasımova bizimlə söhbətində "məqalə mafiyası" haqqında çox maraqlı, diqqətçəkən faktlar açıqladı: "Bəzən çalışqan, savadlı dissertantlar "məqalə mafiyası"nın qurbanı olurlar. Bundan necə qurtulmalı? Təcrübə göstərir ki, pirat jurnallar hətta yüksək qurumlarda indeksləşə bilər. Amma bu indeksləşmə adətən uzun çəkmir. Həqiqi jurnalı yırtıcı, pirat jurnaldan necə ayirmalı?

1) Pirat jurnalın birinci əlaməti odur ki, bəzən bir sayda 70-80, hətta 100-150 məqalə nəşr olunur. Həqiqi yüksək reytinqli jurnallarda məqalə sayı az olur. Ən çoxu 25-30 ətrafında ola bilər. Bəzən bir sayda 10-15 , bəzən də 5-6 məqalə nəşr edilir.

2) Pirat jurnallarda kiçikhəcmli məqalələr yer alır. Yüksək reytingli jurnallarda isə məqalə həcmi böyük olur. Humanitar sahədə 8000 söz çox vaxt aşağı hədd sayılır.

3) Pirat jurnallarda məqalələr anonim rəyə göndərilmir. Sizdən pul alıb anonim rəy olmadan məqalənizi nəşr etdirməyə söz verirlərsə, deməli, sizin yırtıcı jurnala düşmək "şans"ınız var.

4) Pirat jurnallar konkret elm sahələri üzrə ixtisaslaşmır. Bəzən bir sayda bir çox elm sahəsi əks olunur. Bu da jurnalın yırtıcı xarakterini əks etdirir. Nüfuzlu jurnallar adətən konkret, bəzən də dar bir sahəni əhatə edir.

5) Pirat jurnalların səviyyəsizliyini bilmək özün məqalələrinin adlarına baxmaq kifayət edir. Heç bir redaktə olmadan nəşr edildiyindən, məqalə adlarında belə səhvlər yer alır.

6) Pirat məqalələr bəzən "xüsusi say" adı altında müxtəlif jurnallara əlavə edilir. Məsələn, Amerika ədəbiyyatı üzrə bir jurnal "Xüsusi say"da jurnalın istiqamətinə heç dəxli olmayan məqalələr nəşr edirsə, deməli, bu məqalələr elmilikdən uzaqdır.

Yaxşı olar ki, siz məqaləni tərcümə və redaktə etdirib arada "köməkçilər" olmadan nəşr etdirəsiniz. Bu zaman həm xərciniz az çıxar, həm də məqaləniz anonim rəyə gedər və rəydəki qeydlərə əsasən məqaləniz üzərində işləyib daha gözəl bir əsər təqdim edə bilərsiniz" - deyə vurğulayan alim bunun "məqalə mafiyası"nın ziyanlı simasını bir daha dissertantlara təqdim edir və bu təhlükə ilə üzləşməmək üçün onlara konkret yol göstərir.

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov "Bakı-Xəbər"ə bildirdi ki, ümumiyyətlə, Azərbaycanda nüfuzlu elmi jurnallarda alimlərimizin qarşılaşdıqları çətinliklər kifayət qədərdir. İ.Orucov vurğuladı ki, onların qarşısında bu tələbi Ali Attestasiya Komissiyası qoyub, bu özü də çox ciddi müzakirə məsələsinə çevrilməkdədir: "Bir qrup bunu yanlış hesab edir, bunun belə, olmalı olmadığını deyirlər. Amma mən bir məsələni qeyd edim ki, Sovet dövründə alimlər müdafiə edirdi və fikirləşirdilər ki, alimlik diplomum var, ali məktəbdə dərs deyirəm, ölkə miqyaslı elmi jurnallarda çap olunuram, bu da mənə kifayət edir. Amma indi dünyada tendensiya bir qədər fərqlidir Yəni alim hər hansı bir elmi müəssisəsdə, yaxud universitetdə fəaliyyət göstərirsə, o, məqalə çap etdirmirsə, nüfuzlu elmi jurnallarda onun yazdıqlarına, işlərinə istinad yoxdursa, ümumiyyətlə, nüfuzlu jurnallarda çap olunmursa, artıq onun öz işini itirməsi ilə bağlı ciddi təhlükələr var. Kapitalizmin sosializmdən, əslində, fərqi bundadır. Məsələ bundan ibarətdir ki, Azərbaycanda da son dövrlər bu sahədə həm tələb qoyulur, həm də, bütövlükdə, yanaşma tamam dəyişib. Bizdə də bir qrup insan artıq düşünür ki, elmi işlərini xaricə çıxarmalıdır, Azərbaycan elmi ancaq Azərbaycan daxilində olacaqsa, bu artıq elm deyil.

Düzdür, çox ciddi tələblər var və bununla bağlı elm aləmində ciddi mübarizə gedir. Amma burada yanaşmalar da fərqlidir. Dünyada çox ciddi jurnallar var ki, onlarda elmi məqalələr çap etdirmək üçün bu jurnallara çox böyük məbləğdə vəsait köçürülməlidir. Yəni elmi məqalələrin həmin jurnallarda çap olunmasına böyük pullar tələb olunur. Ali Attestasiya Komissiyası da bizim alimlər qarşısında mütləq tələb kimi qoyub ki, onların elmi məqalələri xaricdəki nüfuzlu jurnallarda dərc edilməlidir. Bu jurnallar da Ali Attestasiya Komissiyalarının (bəzi postsovet ölkələrində də hələ də Ali Attestasiya Komissiyası var) siyahısında olan jurnallar olmalıdır. Açığını deyim ki, artıq bununla bağlı bir bazar yaranıb, bir çox işbaz bu bazarda həmin sifarişləri qəbul etməklə, çox böyük vəsait qarşılığında o məqalələri xarici jurnallarda çap etməklə məşğuldur. Bunun nəticəsində də çox acınacaqlı bir vəziyyət yaranıb.

Hansısa bir gənc alim öz işini yazır və məqaləsini hazırlayır, lakin onun xarici jurnallara çıxışı olmadığı üçün çətinliklə qarşılaşır. Bu zaman isə artıq işbazlar meydana çıxır və onlar məqalələri pul qarşılığında çap etdirirlər. Bir çox halda işbazlar gəncləri aldadırlar da. Alimlərə deyirlər ki, sizin məqaləniz nüfuzlu elmi jurnallarda çap olunacaq, amma bunun əksi olaraq həmin məqalələr pirat, tanınmayan jurnallarda çap olunur və beləliklə həmin şəxs həm vaxt itkisinə məruz qalır, həm boş yerə pulu gedir, həm də əsəbləri korlanır. İş qalır bir kənarda, onlar jurnal axtarmaqla məşğul olurlar. Çox arzu edirəm ki, bizim alimlərin əsərləri xaricdə çap olunsun".

***İradə SARIYEVA***

# Dövlət xəstəxanalarında uşaq peyvəndlərinə qarşı qaralayıcı kampaniya, ya reallıq...

***Nəsib Quliyev:** "...uşaq poliklinikalarında bundan uşaqlar pulsuz peyvənd edilir"*

**Bu gün bizim cəmiyyətdə ən çox yayılmış hallardan biri uşaqların peyvənd edilməsi ilə bağlıdır. Valideynlərin xeyli hissəsi uşaqlarını yoluxucu xəstəliklərə qarşı peyvənd etməkdən imtina edir.**

Bir sıra valideynlər isə dövlət uşaq poliklinikalarında həyata keçirilən peyvəndləmə işindən övladını yayındıraraq övladına peyvənd vurdurmaq üçün özəl klinikalara üz tuturlar.

Bəzi valideynlər hesab edirlər ki, dövlət uşaq poliklinikalarında peyvənd pulsuzdur və bu da onun keyfiyyətinin aşağı olmasını, özəl klinikalarda peyvəndin ödənişli olması isə onun keyfiyyətinin üstün olmasını göstərir. Dövlət uşaq poliklinikalarında həyata keçirilən peyvəndləmə işinə qarşı qaralayıcı kampaniyanın başlandığını deyən mütəxəssislərin sözlərinə görə, müəyyən qruplar valideynləri təşvişə salaraq, özəl klinikalara cəlb etmək üçün "dövlət uşaq poliklinikalarındakı peyvəndin keyfiyyəti aşağıdır" yalanını uydurublar.

Özəl klinikalarda uşaqlara peyvənd həddindən artıq baha qiymətə vurulur, bu da valideynlərdə həmin peyvəndlərin daha keyfiyyətli olması təsəvvürünü yaradır. Əslində isə necədir?

Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru, ölkənin baş pediatrı Nəsib Quliyev "Bakı-Xəbər"ə açıqlamasında deyilənlərin həqiqətə uyğun olmadığını, ölkəyə gətirilən bütün peyvəndlərin eyni keyfiyyət dərəcəsinə malik olduğunu bildirdi. "Birincisi, peyvənddən imtina xoşagəlməz haldır və təəssüf ki, bu daha çox problemi bilməməzlikdən irəli gəlir. Yəni peyvənd yeddinci əsrdən mövcuddur və peyvəndə Şərqdə başlanıb. Yeddinci əsrdən indiyə qədər 1400 illik bir zaman keçib və hələ də peyvəndin dünyada alternativi yoxdur, onu əvəz edən bir profilaktika, xəstəlikdən qorunma üsulu mövcud deyil. O ki, qaldı bəzilərinin "peyvənd özəl xəstəxanalarda yaxşıdır, dövlət xəstəxanalarında pisdir" fikrinə, hamı bilməlidir ki, Azərbaycan dövləti 11 yoluxucu xəstəliyə qarşı vaksini dövlət vəsaiti ilə alır və uşaq poliklinikalarında bundan uşaqlar pulsuz peyvənd edilir. Peyvəndin keyfiyyətsiz olması ilə bağlı söhbətlər isə tamamilə əsassızdır, bu uydurma söhbətdir. Niyə? Ona görə ki, peyvənd istehsal edən müəssisələrin hamısı Ümumdünya Səhiyyə Təşkilatının strateji nəzarət qrupunun nəzarəti altındadır. Onların hamısına qarşı eyni tipdə tələblər var. Məsələn, sadə bir misal çəkim, Beynəlxalq Neft Şirkəti ki, var, o istər Bakıda, istər Yardımlıda, istər Qətərdə, istərsə də harada qursa-qursun, ona qarşı tələblər eynidir. Tələblər yerinə yetiriləcəkcə, o şirkət məhsul istehsal edəcək, yetirilməyəcəksə, yox. Adamlar səhv başa düşürlər. Tutalım, peyvənd istehsal edən şirkətin zavodunun biri Belçikada, o biri Hindistandadır. Adamlar elə bilirlər ki, Belçikadakı yaxşı istehsal edir, Hindistandakı isə pis istehsal edur. Bu da məntiqlə doğru deyil. Çünki yenə deyirəm, onların hamısına eyni mərkəzdən nəzarət edilir. Ona görə ki, peyvənd strateji məsələdir, orada saxta nə isə istehsal edib milyonlarla insanı bədbəxt etmək olarmı sizcə? Etmək olmaz. Ümumiyyətlə, cəmiyyətdə yayılan bu söz-söhbətləri ciddi qəbul etmirik. Biz mütəxəssislər də, siz media orqanları da ictimaiyyətə bildirməliyik ki, vaksin, peyvənd preparatı dövriyyədədirsə, o tam olaraq istifadəyə yararlı şəkildədir, onun saxtası olmur. Çünki onların hamısının üzərində beynəlxalq bir təşkilatın - Ümumdünya Səhiyyə Təşkilatının nəzarəti var. Bu təşkilat lisenziya verməsə, heç bir şirkət vaksin istehsal edə bilməz".

N.Quliyevin sözlərinə görə, ictimaiyyətin, xüsusən də valideynlərin peyvəndlə bağlı maariflənməsinə ciddi ehtiyac var. Ölkənin baş pediatrı hesab edir ki, cəmiyyətdə peyvəndə qarşı mövcud olan neqativ fikirlər əsassızdır. "Deyim ki, özəl klinikalar insanları aldadırlar. Özəl klinikalarda camaata deyirlər ki, görürsünüz, bizdə peyvənd bahalıdır, dövlətdə pulsuzdur. Camaat da fikirləşir ki, deməli, özəl klinikalardakı peyvənd daha keyfiyyətlidir. Dövlət peyvəndi YUNİSEF-in xəttilə alır. Dövlət milyonlarla doza aldığına görə uzuz qiymətə alır. Onlar fərdi qaydada bir dozanı 25 dollara satırsa, dövlət çox alanda ucuz qiymətə satır. Özəllər isə ancaq birdozalı alırlar. Ona görə ki, onlara müraciət edənlərin sayı çox deyil ki, birdəfəyə on adamı birdən peyvəndləsinlər. Məcburdurlar ki, birdozalı alsınlar ki, vaksin xarab olmasın.

**Çünki onu açdın, gərək istifadə edəsən. Ona görə də özəl klinikalar birdozalı alırlar, adamları da aldadırlar. Burada əsas narahatedici məqam odur ki, bəzən özəl klinikalar vaksini aldıqları qiymətdən 5 dəfədən 10 dəfəyə qədər baha qiymətə inyeksiya edirlər. Hazır preparatı aptek şəbəkəsindən, ya da depodan alırlar və müəssisəyə gətirirlər. Sonra kimə inyeksiya edirlər 50 manatlığı 350 manata edir. Bu kimi məsələlər var ki, biz ona qarşı mübarizə aparmalıyıq və insanları da aldanmaları üçün maarifləndirməliyik" - deyə N.Quliyev bildirdi.**



*"...bəzən özəl klinikalar vaksini aldıqları qiymətdən 5 dəfədən 10 dəfəyə qədər baha qiymətə inyeksiya edirlər"*

***İradə SARIYEVA***

# Bakıda parkinq probleminin layihələndirilməsinə beynəlxalq şirkətləri cəlb etmək nə qədər düzgündür?

**Məlum olduğu kimi, bu günlərdə ölkə başçısı Bakı Nəqliyyat Agentliyinin rəhbəri Vüsal Kərimlini qəbul edib, onun rəhbərlik etdiyi sahə ilə bağlı tapşırıqlar verib. Söhbətdə diqqətçəkən məqamlardan biri də əhalini ciddi narahat edən parkinq mövzusunda oldu.**



## *Azər Allahverənov: "Hansısa beynəlxalq qurumun düzgün məsləhəti nəticəsində elə problemlər aradan qaldırılır ki, bunun xeyri daha çox olur"*

Ölkə başçısının bu məsələ ilə maraqlanması təsadüfi deyildi. Prezidentin bu yöndə Vüsal Kərimliyə verdiyi sual belə oldu: "Parkinq imkanları olmalıdır ki, sonra biz vətəndaşlardan bu qaydalara riayət etmələrini tələb edək... Ona görə parkinqlə bağlı soruşmaq istəyirəm: vəziyyət necədir və bu il hansı addımlar gözlənir?" V.Kərimlinin cavabı belə olub: "Bu il biz parkinqlə əlaqədar bu istiqamətdə fəaliyyət göstərən beynəlxalq məsləhət xidmətlərini cəlb etmişik ki, Bakı şəhərində parkinq məsələsi nəinki infrastruktur cəhətdən, eyni zamanda, iqtisadi baxımdan analiz olunsun..."

Deməli, belə çıxır ki, BNA parkinq məsələsini həll etmək məqsədilə xaricdən mütəxəssis çağıracaq, problemin infrastruktur və iqtisadi tərəflərini çözmək üçün onlardan məsləhət alacaq. Təbii ki, bu məsləhətlər pulsuz deyil və bununla bağlı tender keçiriləcək. Bu isə milyonlarla dollar və bəlkə də daha çox dövlət vəsaitinin xərclənməsi deməkdir. Sual yaranır ki, avtomobil saxlamaq üçün yer müəyyənləşdirmək, bunun qiymətini, gəlir-çıxarını hesablamaq nə qədər çətin, mürəkkəb işdir ki, bunun üçün xaricdən mütəxəssis cəlb olunur? Bu işin yerli imkanlar hesabına görülməsi mümkün deyil? Nəqliyyat sahəsi üzrə ekspert Azər Allahverənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, V.Kərimli Prezidentlə görüşündə artıq bu işlərin beynəlxalq qurumların köməyilə layihələndirildiyini söyləyib: "Artıq onlar cəlb edilib. İlk baxışdan belə təəssürat yaranır ki, biz beynəlxalq mütəxəssislərin cəlbindən itiririk. Bunun da izahı maddi məsrəflə edilir. Bəzi hallarda biz bundan xeyir götürürük. Hansısa beynəlxalq qurumun düzgün məsləhəti nəticəsində elə problemlər aradan qaldırılır ki, bunun xeyri daha çox olur. Mən nə qədər vəsaitin xərcləndiyini deyə bilmərəm. Vüsal müəllim də öz çıxışında bunu demədi. Təcrübə göstərir ki, parkinqlə bağlı məsələ həm də yol hərəkətinin təşkilinə təsir edir. Bunun da nəticəsində insanların tıxaclarda əsəbləri korlanır, yanacaq sərfi çox gedir, ekologiya korlanır, kütləvi şəkildə parklanma qaydaları pozulur. Bütün bunlar da kütləvi cərimələnmə ilə nəticələnir, sonda ziyan vətəndaşlara dəyir. Əslində, bu problemin peşəkar səviyyədə həll edilməməsi daha ciddi problemlərə səbəb olur. Hər halda, bu prosesə təcrübəsinə güvənilən şirkətlər dəvət olunur. Biz idman oyunlarının təşkilində də analoji vəziyyətlə rastlaşmışdıq. Avropa Oyunları zamanı ölkəmizə çoxlu sayda beynəlxalq mütəxəssis cəlb edilmişdi. Bunu hətta tənqid edirdilər ki, bu qədər məsrəf nəyə lazımdır?

Sonra ölkəmizdə keçirilən İslam Həmrəyliyi Oyunlarında biz həmin mütəxəssislərin sayının azaldığını gördük. Çünki bizim yerli mütəxəssislər bir çox məsələni artıq mənimsəmişdilər. Beynəlxalq təcrübədən yararlanma, eyni zamanda, bizim yerli mütəxəssislərin də peşəkarlaşmasına yardım edir. Təcrübə mübadiləsi baxımından önəmli addımdır. Burada da bizim beynəlxalq praktikanı öyrənib Azərbaycana tətbiq etməyimizə ehtiyac böyükdür".

*Məhəmmədəli*
**QƏRİBLİ**

# Bəzi xəstələr ixtisas həkiminə birbaşa müraciət edə biləcək

**Araşdırmalarımızın nəticəsinə görə, şəxs qeydiyyatda olduğu ərazilərdə bəzi sahələr üzrə ailə həkiminin göndərişi olmadan və müştərək maliyyələşmə məbləği ödəmədən birbaşa ixtisas həkiminə müraciət edə bilər.**



"Trend"in məlumatına görə, bunu İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (İTSDA) İdarə Heyətinin sədri Zaur Əliyev Yeni Azərbaycan Partiyasında keçirilən mətbuat konfransında deyib.

Onun sözlərinə görə, bəzən şəxsin etdiyi müraciətlə bağlı ailə həkiminin yetəri qədər bilik və bacarığı olmaya bilər: "Hesab edirik ki, vətəndaşı buna görə əziyyətə salmamaq üçün ona müştərək maliyyələşmə məbləği ödəmədən, birbaşa ixtisas həkiminə müraciət etmək imkanı yaradılsın. Biz yaxın zamanlarda məlumat verəcəyik ki, vətəndaş hansı ixtisaslar üzrə ailə həkiminə müraciət etmədən, birbaşa ixtisas həkiminə müraciət edə bilər".

Qeyd edək ki, müştərək maliyyələşmə məbləği tibbi xidmətin tarifinin sığorta hadisəsi zamanı sığortaolunan tərəfindən ödənilməli olan müəyyən hissəsidir.

Vətəndaş ailə həkiminin göndərişi olmadan yaşayış yeri üzrə qeydiyyatda olduğu inzibati ərazidə yerləşən tibb müəssisəsinə ambulator şəraitdə göstərilən tibbi xidmətə görə müraciət etdikdə hər bir sığorta hadisəsi üzrə 5 manat, tibbi ərazi bölməsi daxilində digər inzibati ərazidə yerləşən tibb müəssisəsinə müraciət etdikdə hər bir sığorta hadisəsinə görə 5 manat, qeydiyyatda olduğu tibbi ərazi bölməsindən kənarda, yəni icbari tibbi sığorta tətbiq olunan digər inzibati ərazidə yerləşən tibb müəssisəsinə ambulator şəraitdə göstərilən tibbi xidmətə müraciət etdikdə hər bir sığorta hadisəsinə görə 15 manat müştərək maliyyələşmə məbləği ödəməli olacaq.

# Azərbaycanda bir ildə 7316 nəfər sürücülük hüququndan məhrum edilib



**Baş Dövlət Yol Polisi İdarəsi ötən il ölkə ərazisində sürücülük hüququndan məhrum edilən şəxslərin sayını açıqlayıb.**

İdarənin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Kamran Əliyev "Trend"ə açıqlamasında bildirib ki, 2019-cu ildə ölkə ərazisində 7316 nəfər sürücülük hüququndan məhrum edilib:

"Bunlardan əksəriyyəti il ərzində 20 və daha artıq cərimə balı olan şəxslərdir. Onlar arasında məhkəmə tərəfindən sürücülük hüququ məhdudlaşdırılanlar da var. Cərimə balları 20 və daha artıq olarkən həmin şəxslər sürücülük hüququndan məhrum edilir. Sərxoş, avtoxuliqanlıq və digər hadisələrə görə də məhkəmə tərəfindən sürücülük hüququ məhdudlaşdırılanlar var".

# Biləsuvarın Bəydili sakininin xəstəxanada daxili orqanlarının guya çıxarıldığı barədə şayiələr təkzib edildi



**Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) və Baş Prokurorluğun Mətbuat xidmətlərinin "Bakı-Xəbər"ə daxil olan birgə məlumatına görə, bəzi kütləvi informasiya vasitələri və sosial şəbəkələrdə guya insan orqanlarının qanunsuz alqı-satqısı ilə məşğul olan cinayətkar dəstə tərəfindən Biləsuvar Rayon Mərkəzi Xəstəxanasında ailə üzvlərinin icazəsi olmadan ölən şəxsin meyitinin daxili orqanlarının satış məqsədilə çıxarılması üçün əməliyyat olunmasına dair əsassız məlumatlar yayılıb.**

İctimaiyyətdə yanlış fikrin formalaşdırılmasına xidmət etməklə cəmiyyətdə geniş ajiotaja səbəb olmuş həmin məlumatlar həqiqəti əks etdirmədiyindən təkzib olunur.

Belə ki, cari il fevralın 13-də saat 11 radələrində Biləsuvar rayon sakini, 1987-ci il təvəllüdlü Hüseyn Mirzəyevin hündürlükdən yıxılması nəticəsində aldığı xəsarətlərlə "qapalı kəllə-beyin travması, daxili qanaxma" diaqnozu ilə Biləsuvar rayon mərkəzi xəstəxanasına daxil olması və həmin gün saat 15 radələrində orada vəfat etməsi barədə daxil olmuş məlumat əsasında dərhal prokurorluq və polis əməkdaşları tərəfindən məhkəmə-tibbi ekspertin iştirakı ilə meyitə baxış keçirilib.

Faktla bağlı Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 124.1 (ehtiyatsızlıqdan adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb, müvafiq ekspertizalar təyin edilib.

Hüseyn Mirzəyevin meyiti "məhkəmə-tibbi ekspertizasının təyin edilməsi haqqında" Rayon prokurorluğunun müstəntiqinin qərarı əsasında Səhiyyə Nazirliyinin "Məhkəmə-tibbi ekspertiza və Patoloji anatomiya" Elmi-Təcrübi və Tədris Birliyinin Biləsuvar rayon şöbəsinin təşrih otağında məhkəmə-tibb eksperti tərəfindən prokurorluq və polis əməkdaşlarının, eləcə də mərhumun ailə üzvlərinin iştirakı ilə xarici və daxili müayinə olunub.

Meyit daxili müayinə olunduqdan sonra ailə üzvlərinə təhvil verilib, mərhum rayonun Bəydili kənd qəbiristanlığında dəfn olunub.

Hazırda iş üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Gömrükçülər çoxlu miqdarda yararsız məhsulları yandıraraq məhv etdilər



**Fevralın 20-də Dövlət Gömrük Komitəsinin müvafiq qurumları tərəfindən istifadəyə yararsız, mənşəyi bilinməyən, həmçinin dövriyyəsi məhdudlaşdırılan və qadağan olunan malların məhvetmə prosesi həyata keçirilib.**

DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən "Bakı Xəbər"ə verilən xəbərə görə, ümumilikdə, 263029 ədəd fişəng və pirotexniki vasitə, 47322 ədəd müxtəlif adda dərman preparatı, 59 ədəd yararsız müxtəlif markalı telefon və aksesuarları, 5077 litr alkoqollu və kustar üsulla 4742 ədəd sərinləşdirici içki, 5255 kq ərzaq və qeyri-ərzaq məhsulları, 3070 kiloqram yuyucu vasitə, 2167 kq müxtəlif növ məişət malları məhv edilib.

Qeyd edək ki, məhv edilən mallar fiziki şəxslər tərəfindən Nazirlər Kabinetinin 305 saylı qərarı ilə müəyyənləşdirilən normalara əməl olunmadan gömrük sərhədindən keçirilməyə cəhd göstərildiyi üçün müvəqqəti saxlanc anbarına qəbul edilən və saxlanc müddətində vətəndaşlar tərəfindən həmin malların geri götürülməsinə dair müraciət olunmayan, eyni zamanda istifadəyə yararsız, mənşəyi bilinməyən, həmçinin dövriyyəsi məhdudlaşdırılmış və qadağan olunmuş kateqoriyalara aiddir.

Məhv edilən mallar arasında Ermənistan istehsalı olan 324 ədəd suvenir, 40 qutu siqaret və 18 litr müxtəlif növ spirtli içkilər də olub. Müvafiq ekspert rəyi və məhkəmə qərarına əsasən məhvetmə prosesinə cəlb olunan mallar Sumqayıt şəhəri yaxınlığındakı ekoloji poliqonda DGK-nın müvafiq qurumlarının əməkdaşları və media nümayəndələrinin iştirakı ilə yandırılaraq məhv edilib.

# Dağlar diyarı Lerikin daha bir ölü kəndi - Vənədi...




**Prezident İlham Əliyevin apardığı siyasi kursun nəticəsidir ki, indi respublikada həyata keçirilən iqtisadi, sosial islahatlar yalnız Azərbaycan vətəndaşının rifahına - gözəl, azad, firavan yaşayışına xidmət edir.**

Bu nəcib məqsədlə ən ucqar dağ kəndləri belə dövlətin xüsusi diqqəti hesabına abadlaşır, yollar çəkilir, dinamik inkişaf naminə infrastruktur yaradılır. Amma nədənsə, bu inkişaf Lerik rayonundan yan keçir, nəticədə isə dünyanın cəhənnəm qapısını xatırlayan ölü kəndlərin sayı bilinmir. Hər dəfə bu sosial qayğılardan mərhum kəndlərdə olanda, bir daha əmin olursan ki, Lerik rayonunda insan taleyinə məsul şəxslər ölkədə aparan işləri gözdən salmağa xidmət edirlər.

Bir misal. Rayonda Vənədi kəndi füsunkar yaşıllıqlar əhatəsində yerləşir. Sovet vaxtı buranın sakinlərinin həyatı çox gözəl idi. Sovetlər ömrünü başa vurdaqdan sonra sanki bu yaşayış məntəqəsi səlahiyyət sahiblərinin gözündən uzaq, könlündən iraq düşdü. Kənddə uzun illərdir heç bir sosial obyekt tikilməyib. Köhnələr isə biganəlik üzündən ömrünü başa vurub. Sosial çətinliklər ucbatından vənədililər sözün əsl mənasında zülm çəkirlər.

Yağışlı, qarlı günlərdə kənd daxili yollarda hərəkət dayanır. Buradan vacib bir işdən ötrü rayon mərkəzinə gedib-gəlmək hər adamın işi deyil. Münasib ticarət yeri olmadığı üçün adamlar gündəlik tələbat ərzaqlarını möhtəkirlərdən üççat bahasına alır. İşıqların həftələrlə sönməsi adi haldır. Ölkə bankomat sisteminə keçəndən sonra şəraitsizlik üzündən yaşlı adamlar pensiyalarını vaxtında ala bilmir. Mədəni rahatlıqdan danışmaq isə sadəcə gülüncdür. Kəndə mavi qazın verilməsi də problem olaraq qalır. Nəticədə, qışın şaxtasına dözməyən qocaların ah-naləsi ürək göynədir....

Elə bil vənədililərin rahat həyatı tilsimə düşüb. Güzəran günü-gündən pisləşir. Ayağı yer tutan dədə-baba yurdundan qaçır...

Belə getsə, lap yaxın vaxtlarda Azərbaycanda daha bir kənd tarixə dönəcək...

***Zəfər ORUCOĞLU***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

№ 32 (4163) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

21 FEVRAL 2020-ci il

www.baki-xeber.com



## Yeni bilәrzik istifadәçinin әtrafındakı mikrofonların sәsini batırır

**Çikaqo Universitetinin alimlәri istifadәçinin әtrafındakı mikrofonların sәsini batıran yeni bilәrzik tәqdim ediblәr.**

Tәdqiqatçılar hesab edirlәr ki, ucuz qurğu şәxsi danışıqların mәxfiliyini saxlamağa imkan verәcәk. "İctnews.az" bildirir ki, "indiki reallıqda istәnilәn insanın sәsini yazmaq çox asandır - layihә üzәrindә işlәmiş Çikaqo Universitetinin dosenti Pedro Lopes deyib. İnsanın әtrafında sәs yazan qurğular getdikcә artacaq, bu baxımdan sözügedәn bilәrzik şәxsi mәlumatlara edilәn hücumlara qarşı faydalı müdafiә alәtidir. Hәlә ki onu yalnız müvәqqәti istifadә etmәk olar - mәxfi nәsә demәk istәdikdә bilәrziyi aktivlәşdirmәk lazımdır. Bu zaman qurğu istifadәçinin әtrafındakı bütün mikrofonların sәsini batıracaq".

## Unutqanlığın sәbәbi "beyin dumanı" ola bilәr

**Diqqәt dağınıqlığı, qavrama problemi, konsentrasiya, öyrәnmәkdә çәtinlik vә s. Xüsusilә, işlәyәn adamların yaşadığı bu hisslәr, beyinlә bağlı problemin xәbәrçisi ola bilәr.**

Çox zaman bir çox yoxlanışdan keçilsә dә, sәbәbi tam olaraq bilinmәyәn "beyin dumanı"haqqında maraqlı bilgilәr var. "Medicina.az" bildirir ki, türkiyәli uzman Buğra Buyrukçuk bu xәstәliyin altında yatan problemlәrdәn danışıb. Onun sözlәrinә görә, әn başlıca sәbәblәrdәn biri B6, B1, B12 kimi vitaminlәrin vә ya magnezium, fosfor vә yod kimi mineralların әskikliyi gәlir. Qanın hücrә olaraq özünü tәnzimlәyә bilmәmәsi dә beyin dumanlanmasına gәtirib çıxarır. Əsas olan narahatlığı ortaya çıxarmaqdır. Bunun üçün qan dәyәrlәri vә ümumi müayinә ilә tam diaqnoz qoymaq lazımdır. Xәstәliyi yaradan digәr sәbәb isә, beynimizdәki bilgilәrin havadan asılı vәziyyәtdә qalmasıdır. Beyinә davamlı olaraq yeni bilgilәrin gәlmәsi, bәzi mövzularda tam qәrar vermәmәk kimi sәbәblәr bilgilәrin havadan asılı qalması vә beynin yavaşlatmasına yol açır.

Bu eyni ilә kompüter yaddaşının lazımsız fayllarla dolması kimidir. Hәkim bildirib ki, beynin sinxron işlәmәsi, hücrәlәrin özünü toplaması vә gәnclәşmәsi üçün mütlәq tәbii yöntәmlәrdәn müalicәyә başvurulmalıdır. Təbi yollardan olan Akupunktur(iynә batırma) vә hücеyrәlәri yenilәyәn ozon terapiyası әn öndә gәlәn tәbii yöntәmlәrdәndir. İnanılmaz gәlә bilәr, lakin beyin hücrәlәrinin özünü toplaması üçün tәbiәtlә sıx әlaqәdә olmaq,kamp qurmaq vә insanın dayağı sayılan dua etmәyin çox böyük sәmәrәsi verir.

## Yeni nәsil elastik robotların özәlliyi...

**Massaçusets Texnologiya İnstitutunun mühәndislәri yeni nәsil elastik robotlara olduqları yeri toxunuşla hiss edәrәk müәyyәnlәşdirmәyi öyrәdiblәr.**

"İctnews.az" bildirir ki, mühәndislәrin sözlәrinә görә, әnәnәvi avtomatik idarәetmә metodları robotları әks-әlaqә ilә tәmin edәn bir neçә hәrәkәti müәyyәnlәşdirmә kamera sistemlәri üzәrindә qurulub. Bu, mexanizmә mәkanda istiqamәti müәyyәnlәşdirmәyә imkan verir. Elastik robotlarda isә bu bir qәdәr fәrqlidir.

Uzun müddәt tәdqiqat qrupu elastik modellәrә әtrafı "hiss etmәyә" imkan verәcәk cihaz üçün uyğun material axtarışında olublar. Nәhayәt, mütәxәssislәrdәn biri pyezorezistiv xüsusiyyәtlәrә malik vә elektromaqnit maneәlәrdәn qorunmaq üçün istifadә olunan tәbәqәlәrdәn istifadәni tәklif edib. Mәhz onlardan elastik sensorlar yaratmaq mümkün olub.

Lazımi ölçülәri әldә etmәk üçün tәdqiqatçılar robotların daha elastik olması üçün müxtәlif naxışlarda keçirici silikon tәbәqәlәrin düzbucaqlı zolaqlarını lazerlә kәsiblәr. Nәticәdә, robotlara әtrafı öyrәnmәyә imkan verәcәk "dәri" әmәlә gәlib. Görülәn işlәrin qiymәtlәndirilmәsi üçün tәdqiqatçılar tәrәfindәn elastik robotlardan әldә edilәn informasiyanı tәhlil edәn neyron şәbәkә yaradılıb. Nәticәlәrdәn mәlum olub ki, robot mәkanda tәkcә istiqamәti müәyyәnlәşdirmir, hәm dә tәdqiqatçıların tәklif etdiyi şablonlar üzәrindә öyrәnir.

## Dinozavrların dönәmindә dә xәrçәng xәstәliyi olub

**Hәr il milyonlarla insanın ölümünә sәbәb olan xәrçәng xәstәliyinin dinozavrların dönәmindә dә olduğu aşkarlanıb.**

"Medicina.az" bildirir ki, Kanadada tapılan milyonlar illәr yaşı olan dinozavr fosillәrindә bu gün insanlar arasında sürәtlә yayılan sümüy iliyi xәrçәngi tәsbit edilib. İsrailli elm adamları, 66 milyon yaşında olduğu hesab edilәn "hadrosor" fosilinin sümüklәrini incәlәyib. Onun onurğasında aşkarlanan şişin insanlarda da görülәn "langerhans hüceyrә histiyositozu" olduğu aşkarlanıb. Alimlәr bildirib ki, ilk dәfәdir onlar bu xәstәliyә fosillәrdә rast gәliblәr.

**Şair-nasir Vaqif Nәsib Sarıhüseynoğlu Sabir Cümşüdә hәyat yoldaşı Sevil İsmayıl qızının vәfatından kәdәrlәndiyini bildirir vә dәrin hüznlә başsağlığı verir.**
**Allah rәhmәt elәsin!**

## Elan

Hacıyeva Naibә Ümid Əli qızının adına, Bakı şәhәri, Yasamal rayonu, M.Müşfiq küçәsi, ev 14, mәnzil 17 ünvanının 055816 nömrәli qeydiyyat vәsiqәsi (kupça) itdiyi üçün etibarsız sayılır.

Hacıyeva Naibә Ümid Əli qızının adına, Xәzәr rayonu, Mәrdәkan qәsәbәsi, 1219 saylı bağ evinin 10261 nömrәli qeydiyyat vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

Bağırov Mәmmәdbağır Mәmmәdkazım oğlunun adına, Sabunçu rayonu, Pirşağı bağlar massivi 305/t saylı bağ sahәsinin 23142 nömrәli müqavilәsi itdiyi üçün etibarsız sayılır.

Rüstәmova Fidan İmran qızına Qәrbi Kaspi Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Gün çoxsaylı әlaqәlәr, görüş, zәnglәr vәd edir. Bütün bunlar sizi yoraraq tәnhalıq, sakitlik aramağa vadar edә bilәr. Vacib saydığınız işlәrlә mәşğul olun, faydalı hesab etdiyiniz layihәni başa vurmağa çalışın.



**Buğa** - Çoxdan can atdığınız nәticәnin konkret vә hәtta formal şәkildә әldә olunması üçün әlverişli gündür. Şәxsi hәyatda münasibәtlәr bir qәdәr gәrilәcәk, amma ciddi tәlaş üçün heç bir әsas yoxdur.



**Əkizlәr** - İmkanlarınızdan xaricә çıxın, mәqsәdә çatın. Hüquqi mәsәlәlәri hәll etmәk, danışıqlar aparmaq, toplantı keçirmәk olar. Maraq dairәnizdә olan işlәri axşam saatlarında da davam etdirә bilәrsiniz.



**Xәrçәng** - İş yerindәki fәaliyyәtdә qayda yaradılması әhvalınıza müsbәt tәsir edә bilәr. Şәxsi hәyatda sizdәn sәmimilik tәlәb edәcәklәr. Yaxın bildiyiniz insanı dinlәyin, ona mәslәhәt verin, qayğısına qalın.



**Şir** - Bu gün aktiv olun, yaşamın tempindәn geri qalmayın. Yeni işlәrә başlayın, sizi maraqlandıran ideya vә layihәlәri hәyata keçirmәyә çalışın. İşә laqeyd, sәthi münasibәt yolverilmәzdir.



**Qız** - Yaradıcı yanaşmanın punktuallıq vә sәbrlә müşayiәt olunması gәrәkәn işlәrdә uğur әldә edә bilәrsiniz. Çәtin işi hәll etmәyә başlayın. Mürәkkәb, az adamın bacardığı işi görsәniz, sәmәrәsi dә әhәmiyyәtli olar.



**Tәrәzi** - Ünsiyyәt dairәsini mәhdudlaşdırmayın, görüşә dәvәtә mәnfi cavab vermәyin, danışıqlar aparın. İşi tәrәfdaş vә hәmkarlarınızla birlikdә görün, axşam saatlarını da dostlarla keçirin.



**Əqrәb** - Bu gün yağlı yemәyin, bir qәdәr pәhriz saxlayın. Qız bürcü, Ay vә Marsın münasibәtlәri sağlam hәyat tәrzi, fiziki iş, piyada gәzinti tәlәb edir. Xroniki xәstәlik özünü büruzә verәrsә, mütlәq hәkimә müraciәt edin.



**Oxatan** - Ailәdә, evdә qayda yaratmaq üçün vaxt tapın. İndi istәnilәn sakit, rәvan, "tәmizlәyici" iş sizә daxili stabillik hissi ilә güc verә bilәr. Hisslәrinizdә batini sakitlik, qarşılıqlı anlaşma vә stabilliyә can atın.



**Oğlaq** - Bu gün hәr şey әvvәlki mәcrada olacaq. Heç bir ciddi dәyişikliyә ehtiyac yoxdur. Sadәcә, işlәrә önәmli tәsir edәn tәfәrrüatlar vә nüanslan nәzarәtdә saxlayın. İnformasiya axtarışına daha çox diqqәt vә vaxt ayırın.



**Dolça** - Gün sakit başlayacaq. Tәlәsmәyin, cari mәsәlәlәrlә tәmkinlә mәşğul olun. Fәaliyyәtinizә әlavә edә bilәcәyiniz mәqamlar barәdә düşünmәk zamanıdır. Tәkliflәr, xәbәr vә xidmәt mübadilәsi gәlәcәklә bağlı yeni perspektivlәr yarada bilәr.



**Balıqlar** - Bu gün evdә vә işdә qayda yaradın. Çoxsaylı kiçik işlәr hәllini gözlәyir. Gәlәn informasiyaları yerbәyer edin, ehtiyac yaranarsa, tәmirә әl atın. Alış-verişdә çox pul xәrclәmәyin.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Çörәk insan ömrünü qısaldır

**İspaniya alimlәr sәnaye cәhәtәn ultra emal olunmuş qidaların ürәk-damar sistemini sıradan çıxarıb, erkәn ölümә sәbәb olduğunu açıqlayıb.**

Bu qidalara çörәk, un mәmulatları, yarımfabrikatlar, qazlı içkilәr aiddir. Onlar sәnaye cәhәtdәn bir neçә dәfә emal edilir. Tәrkibindә yüksәk miqdarda şәkәr, duz, yağlar, aromatizatorlar, rәnlәr var. Lif, mineral vә vitaminlәr isә bu qidalarda yox dәrәcәsindәdir. Hazırda müasir insanların gündәlik qidasının 60%-ni bu mәhsullar tәşkil edir. "Medicina.az" bildirir ki, İspaniyada bu yöndә 2 eksperiment aparıblar. Onlardan birindә 105 min könüllü iştirak edib. Bu adamların sağlamlıq durumunu 10 il boyunca izlәyiblәr. Nәticәdә, mәlum olub ki, çoxmәrhәlәli emal olunmuş qidalar xәstәlik vә ölüm faizini 13% artırıb. İkinci tәcrübәdә isә 20 min insan iştirak edib. Onların qidalanması ilә vaxtından әvvәl ölüm sәbәblәri arasında әlaqә araşdırılıb. Yenә dә gündә 4 pay emal olunmuş qidalar yeyәn insanlarda erkәn ölümün 62% artdığı sübut olunub. Hәr әlavә qida payı insanı ölümә daha 12% yaxınlaşdırır. Alimlәrin fikrincә, insanlar yüksәk dәrәcәdә emal olunmuş qidaları az emal vә ya heç emal olunmamış qidalarla әvәz etmәlidirlәr. Bu siyahıda birinci yeri ağ çörәk tutur.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*
*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**
Qәzet hәftәdә 5 dәfә çıxır.
(Bazar vә bazar ertәsindәn başqa).
«BZ»-dә çap olunur.
*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.